Xalqın qəzeti!

# Xalq qəzeti

№ 265 (30381) 5 dekabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


# Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və mövqeyi yüksəlir

## Prezident İlham Əliyev Malayziyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Malayziyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ahmad Kamrizamil Bin Mohd Rzanın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Ahmad Kamrizamil Bin Mohd Rza Malayziyanın Kralı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billahın və Malayziyanın Baş naziri Ənvər İbrahimin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Malayziyanın Kralına və Baş nazirinə çatdırmağı xahiş etdi.

Siyasi münasibətlərimizin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı əlaqələrimizin daha da fəallaşdırılmasının və əməkdaşlığımızın yeni istiqamətlərinin, o cümlədən investisiya, qarşılıqlı ticarət, humanitar sahələrdə müəyyənləşdirilməsinin zəruriliyini bildirdi.

*(ardı 2-ci səhifədə)*

# Azərbaycan – ABŞ: yeni səfir və narahat Cənubi Qafqaz

**ABŞ-ın Azərbaycandakı yeni səfiri Mark Libbi dekabrın 2-də axşam saatlarında Bakıya gəlib. O, Azərbaycan dilində mətbuata qısa açıqlama verməklə kifayətlənib və ölkəmizə gəlişindən çox şad olduğunu bildirib: “Mən öz etimadnaməmi təqdim etmək və ABŞ-Azərbaycan münasibətlərinin inkişafı və regionda davamlı sülhün əldə edilməsi üçün işə başlamaq fürsətini səbirsizliklə gözləyirəm. Mən də sizin gözəl ölkənizi daha yaxından tanımaq istəyirəm. Xoş qarşıladığınız üçün təşəkkür edirəm”.**




Qeyd edək ki, Birləşmiş Ştatların yeni səfirinin gəlişi Azərbaycanla ABŞ arasındakı münasibətlərdə soyuqluğun müşahidə olunduğu dövrə təsadüf edir. Bunun başlıca səbəbi noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında keçirilmiş dinləmələrdir. Daha doğrusu, həmin dinləmələrdə anti-Azərbaycan, ermənipərəst ritorikanın əsas götürülməsidir.

Məlum olduğu kimi, sözügedən toplantıda ABŞ Dövlət katibinin köməkçisi Ceym O`Brayn iştirak etmişdi. Köməkçinin sözlərindən belə anlaşılmışdı ki, rəsmi Vaşinqton Azərbaycan və Ermənistan arasında sülh sazişi bağlanana qədər, Bakı ilə əlaqələri dayandıracaq. O`Brayn, həmçinin Bakının Naxçıvana gedən quru yolunun Ermənistan yox, İran ərazisindən keçəcəyinə dair mövqeyi üzərində dayanaraq, məsələnin Birləşmiş Ştatlar üçün yolverilməzliyini vurğulamışdı. O, kifayət qədər, amiranə tərzdə Azərbaycanın qarşıdakı iki həftə müddətində mövqeyini dəqiqləşdirməli, seçim etməli olduğunu demişdi.

*(ardı 7-ci səhifədə)*

# 20 il: Milli dövlətçiliyin yeni mərhələsinə doğru

Səhifə ⇨ 3

# Bakı ilə İrəvan arasında çərçivə sazişi: Deklorasiya, yoxsa ciddi sənəd?



Səhifə ⇨ 4

# İrəvan iflas etmiş separatçılığı dirçəltməyə çalışır

Səhifə ⇨ 4

# Azərbaycan Şimal–Cənub nəqliyyat dəhlizində önəmli qovşaqdır




Səhifə ⇨ 8

# Qazaxıstan teatrı Azərbaycan səhnəsində

Səhifə ⇨ 10

# Ölkəmiz mina terroruna qarşı da təkbaşına mübarizə aparır

## İrəvana isə “gözün üstdə qaşın var” deyən yoxdur

**Ermənistanın torpaqlarımızı işğalı nəticəsində uzun illər yurd həsrəti ilə yaşamağa məcbur olan əhalinin hazırda doğma el-obasına qayıdışını çətinləşdirən əsas amil işğal dövründə bölgəyə saysız-hesabsız minaların basdırılmasıdır. Mina təhlükəsi təkcə azad olunmuş ərazilərdə qayıdışı çətinləşdirmir, infrastruktur layihələrinin icrasına da maneçilik törədir və iş prosesinin ləngiməsinə səbəb olur. Mina və partlamamış hərbi sursatların təmizlənməsi ağır zəhmət, uzun və yorucu əmək tələb edən işdir. Eyni zamanda, böyük vəsait tələb edir. Mütəxəssislər işğaldan azad edilmiş ərazilərin minalardan tamamilə təmizlənməsi üçün azı 10-15 il vaxt tələb olunduğu fikrindədirlər.**



Son vaxtlar Ermənistan rəhbərliyinin Azərbaycanla sülh sazişinin imzalanmasına sanki tələsdiyi hiss olunur. Bunu ölkənin baş nazirinin, parlament sədrinin çıxışlarından da görmək mümkündür. Onlar ilin sonunadək sülh sazişinin bağlanmasının tərəfdarı olduqlarını qeyd edirlər. Ancaq rəsmi İrəvan mina xəritələrinin verilməsi ilə bağlı onun ünvanına edilən çağırışlar qarşısında özünü eşitməzliyə qoyur. Mina xəritələrini ölkəmizə verməkdən imtina edir. Halbuki, mina xəritələrinin verilməsi iki ölkə arasında etimad yarada bilən amil olardı. Ermənistanın verdiyi mina xəritələrinin etibarlılığı isə çox aşağıdır.

Digər tərəfdən, minaları basdıranlar, bir qayda olaraq, bu addımı qarşı tərəfin hərbçilərinin zərər çəkməsi düşüncəsi ilə atırlar. Necə deyərlər, minalar “müharibə silahı” kimi istehsal edilir. Ancaq, əslində, onun qurbanlarının yalnız 10 faizi hərbçilərdir. Qurbanların 90 faizi gündəlik həyatlarını davam etdirən, su gətirən, məktəbə gedən və ya tarlalardan məhsul toplayan günahsız insanlar, o cümlədən, qadınlar və uşaqlardır.

Azərbaycan üzləşdiyi mina təhlükəsi problemini müxtəlif beynəlxalq platformalarda mütəmadi olaraq qaldırır. Bununla bağlı Bakıda beynəlxalq tədbirlər keçirilir. Elə dünən paytaxtımızda mina təhlükəsi ilə bağlı iki tədbirin keçirilməsi buna numunə hesab oluna bilər. “Azərbaycanda əlilliyi olan şəxslərin və mina qurbanlarının müdafiəsi” mövzusunda “dəyirmi masa” Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatı və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) birgə təşkilatçılığı ilə baş tutub.

Ombudsman Səbinə Əliyeva tədbiri giriş sözü ilə açaraq bildirib ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında çoxsaylı mina və partlamamış hərbi sursat mövcuddur. Qarşı tərəf hələ də onların xəritə-sxemləri barədə dəqiq məlumatları vermək istəmir.

BQXK-nın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Draqana Koiç isə qeyd edib ki, Azərbaycanda mina qurbanlarının 90 faizindən çoxu kişilərdir: “Təəssüf ki, Azərbaycan mina problemi ilə üzləşib. Mina qurbanlarına yardım çox vacibdir. Onların ailələrinin ehtiyac duyduğu xidmətlərlə təmin edilməsi çox vacibdir. Biz öz dəstəyimizi Ombudsman Aparatına göstərməyə hazırıq. Məqsədimiz qabaqcıl təcrübələri nəzərdən keçirmək, boşluqları müzakirə edib onları aradan qaldırmaqdır”.

*(ardı 9-cu səhifədə)*

# Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və mövqeyi yüksəlir

## Prezident İlham Əliyev Malayziyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



(əvvəli 1-ci səhifədə)

Beynəlxalq institutlar çərçivəsində əməkdaşlığımızdan məmnunluğunu ifadə edən Prezident İlham Əliyev BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatında ölkələrimizin bir-birini dəstəkləməsinin önəmini vurğuladı və bunu qardaşlıq əlaqələrimizin yaxşı nümunəsi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı, eyni zamanda, iqtisadi əlaqələrin genişləndirilməsinin də vacibliyinə toxunaraq qarşıdan gələn illərdə nazirlər, hökumət nümayəndələri, biznes dairələri arasında qarşılıqlı səfərlərin təşkilinin bu işə xidmət edə biləcəyini dedi. Prezident İlham Əliyev səfirin Azərbaycanda fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini qeyd edərək ona işində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi, turizm, ticarət və digər sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümidvarlığını ifadə etdi.

Diplomat bildirdi ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanda səfir təyin olunmasından şərəf hissi duyur. O, dövlətimizin başçısının çox xarizmatik və uzaqgörən bir lider olduğunu vurğuladı.

Ahmad Kamrizamil Bin Mohd Rza əlaqələrimizin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Söhbət zamanı ölkələrimiz arasında turizm sahəsində əməkdaşlıq, mədəni-humanitar münasibətlərin genişləndirilməsi məsələləri müzakirə olundu, birbaşa aviareyslərin həyata keçirilməsi, Azərbaycan-Malayziya iqtisadi əlaqələrinin genişləndirilməsi üçün hökumətlərarası komissiyanın yaradılması məsələlərinə toxunuldu.

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 980-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505, № 6, maddə 795, № 7, maddələr 946, 953, № 8 (I kitab), maddələr 1139, 1166, 1172, 1179, 1180, № 9, maddə 1284) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 9-1-ci hissə əlavə edilsin:

"9-1. Məcəllənin 184.7-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

9-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası adından – Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri;

9-1.2. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 dekabr 2023-cü il**

## "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Çin Xalq Respublikasının Milli Enerji Administrasiyası arasında energetika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il 17 oktyabrın 17-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Çin Xalq Respublikasının Milli Enerji Administrasiyası arasında energetika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 dekabr 2023-cü il**

## Suqovuşan–Sərsəng su anbarı–Qozlukörpü–Kəlbəcər avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Səksən kilometr uzunluğu olan Suqovuşan–Sərsəng su anbarı–Qozlukörpü–Kəlbəcər avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 17,0 (on yeddi) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 dekabr 2023-cü il**

# Ceyhun Bayramovun Rusiyaya işgüzar səfəri

**Xarici işlər naziri Ceyhun Bayramov dünən Xəzəryanı ölkələrin Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak etmək məqsədilə Rusiya Federasiyasına işgüzar səfərə yola düşüb.**

Səfər çərçivəsində Ceyhun Bayramovun tədbirdə çıxışı və ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

**XQ**

# XİN Ermənistan tərəfinin yalanını qətiyyətlə rədd edib

**Ermənistan Xarici İşlər Nazirliyinin guya Azərbaycan tərəfinin açdığı atəş nəticəsində erməni hərbçisinin həlak olması ilə bağlı iddianın əks olunduğu 2023-cü il 4 dekabr tarixli açıqlamasını qətiyyətlə rədd edirik. Bu fikirlər XİN şərhində yer alıb.**

Bildirilib ki, Azərbaycan Müdafiə Nazirliyi qeyd edilən dezinformasiya xarakterli, iftira dolu iddianı təkzib edib və Ermənistan tərəfinin yaydığı məlumatın həqiqətə uyğun olmadığını bəyan edib.

"Ermənistan tərəfinin bu yalan açıqlaması silahlı qüvvələrində baş verən özbaşınalığı və hərc-mərcliyi ört-basdır etmək niyyəti daşıyır. Sülh sazişi üzrə təklifləri 70 gündən artıq müddətdə yubadan Ermənistan tərəfi indi də bu cür pozucu açıqlamaları ilə normallaşma prosesinin perspektivlərinə xələl gətirir.

Ermənistan tərəfi bu kimi açıqlamalarla, həmçinin sərhəd bölgələrində süni gərginlik yaratmaq və üçüncü dövlətlərin diqqətini cəlb etmək məqsədi güdür.

Azərbaycan öz tərəfindən postmünaqişə mərhələsində sülh və quruculuq səylərini davam etdirəcək və bu prosesə qarşı yönələn hər hansı addımların qarşısını qətiyyətlə alacaqdır", – deyə Azərbaycan XİN-in şərhində vurğulanıb.

**XQ**

# AK Parti sədrinin müavini Bakıda



**Dekabrın 4-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini Zafer Sırakayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Türkiyə əməkdaşlığının genişləndirilməsində hakim partiyalar arasındakı səmərəli əlaqələrin mühüm rol oynadığını vurğulayaraq YAP-AK Parti işbirliyinin önəminə diqqəti cəlb edib.

Zafer Sırakaya Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz və bütün dünyaya nümunə olduğunu vurğulayıb.

**XQ**

# Azərbaycanın beynəlxalq antikorrupsiya fəaliyyətinə töhfələri yüksək qiymətləndirilir



**Korrupsiyaya qarşı qlobal mübarizədə dünyanın 100-dən çox dövlətini birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) dekabrın 4-də videoformatda İcraiyyə Komitəsinin iclası və ümumi yığıncağı keçirilib.**

Ölkəmiz bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verərək dövlətimizin başçısı İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq IAACA-nın həmtəsisçilərindən biri olmaqla onun işində daim fəal iştirak edir. Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov qurumun vitse-prezidenti və Şərqi Avropa regionu üzrə koordinatorudur.

Azərbaycanın IAACA-nın işində fəallığı və verdiyi töhfələr, o cümlədən ölkəmizin səyləri nəticəsində assosiasiyanın coğrafiyasının genişlənməsi, beynəlxalq aləmdə böyük marağa səbəb olan vebinarın təşkili və bu ərəfədə antikorrupsiya sahəsində innovativ yanaşmaya dair Azərbaycanın brendi olan və dövlət başçımızın təşəbbüsü ilə yaradılmış "ASAN xidmət" təcrübəsinin IAACA-nın internet portalında maraqlı təqdimatı və digər tədbirləri

Dünyanın ilk antikorrupsiya qurumlarından olan ICAC-ın gələn il 50 illiyi münasibətilə yubiley tədbirləri çərçivəsində beynəlxalq simpoziumun və assosiasiyanın illik konfransının, həmçinin Beynəlxalq Antikorrupsiya Akademiyasının açılışının nəzərdə tutulduğu bildirilərək F.Məmmədov qurumun vitse-prezidenti kimi həmin tədbirlərə əsas məruzəçi qismində dəvət edilib.

Ədliyyə naziri iclaslarda çıxış edərək IAACA-nın qlobal antikorrupsiya mübarizəsində mühüm rolunu vurğulayıb, ölkəmizin Şərqi Avropa regionunda IAACA-nın işini əlaqələndirdiyini, beynəlxalq tərəfdaşlarla birgə tədbirlərin təşkilini, ikitərəfli görüşlərdə və forumlarda, habelə sosial mediada assosiasiyanın təşviqinin davam etdirildiyini qeyd edib, təşkilatın inkişafında bundan sonra da öz səylərini əsirgəməyəcəyini bildirib.

Tədbirlərdə Ədliyyə Nazirliyinin və Baş Prokurorluğun aidiyyəti məsul nümayəndələri iştirak ediblər.



# 20 il: Milli dövlətçiliyin yeni mərhələsinə doğru

## Fəlsəfi-sinergetik təhlil



**IX məqalə**

***Demokratiya nədir? Bəlkə, bu, insanın dövlətlə dialoqudur?***

***Sergey Dovlatov***

### Siyasi dialoq gerçəklik prizmasında

Siyasi partiyalar arasında dialoq məsələsi postsovet məkanı müstəqil dövlətlər üçün həm taktiki, həm də strateji xarakter almış fəaliyyətdir. Məsələnin anatomiyası tarixi, siyasi və yeni cəmiyyət quruculuğu aspektlərinə malikdir. Bu məqamlar isə kifayət qədər mürəkkəb və xeyli dərəcədə ziddiyyətli faktorlara bağlıdır. Hazırda postsovet məkanı ölkələrində siyasi partiyalar arasında dialoq üzrə müşahidə edilən proseslərin ümumi dinamikası təsdiq edir ki, burada aydın mənzərə mövcud deyildir. Ümumiyyətlə, həmin ölkələrin hansında dialoqun olduğu, hansında olmadığı, bütövlükdə, məlum deyil. Lakin istisna vardır. İstisna Azərbaycandır. Tezisimizin fəlsəfi-sinergetik izahını verməyə çalışaq.

Keçən əsrin 90-cı illərində aydın oldu ki, sosialist düşərgəsinin dağılması nəticəsində meydana gələn müstəqil dövlətlərin cəmiyyətlərində çox sayda açıq və ya gizli ziddiyyətlər mövcuddur. Həmin ziddiyyətlər konkret ölkənin keçdiyi tarixi yolun özəlliklərindən qaynaqlanırdı. Xüsusilə, siyasi səhnəyə, demək olar ki, eyni zamanda, fərqli siyasi-ideoloji istiqamətə malik partiyalar atıldı. Hətta, bir sıra partiyalar radikal siyasi görüşlərə malik olmaqla yanaşı, həm də qanunsuz silahlı qruplara malik idilər. Bu vəziyyət siyasi səhnəni təhlükələr, qarışıq davranışlar və bir-biri ilə hüquqdankənar münasibətlər qurmağa təhrik edirdi. Faktiki olaraq Baltikyanı ölkələri çıxmaqla keçmiş SSRİ-nin hər bir respublikasında belə bir vəziyyət yaranmışdı. O proses toplumda siyasi olaraq bir neçə mənfi halı meydana gətirdi.

### a) Absenteizm sindromu

Birincisi, siyasi partiyalar təşəbbüsü ələ almaq üçün zor tətbiqi, silah işlətməyi rəqabətin normasına çevirməyə başladılar. Bu hal cəmiyyəti yeni siyasi situasiyadan qorxutdu, ondan kənarda dayanmağa təhrik etdi. Toplumda bunun əlaməti absenteizm (lat. absentis – olmayan) adlanan fenomen idi. Absenteizm insanların ölkədə siyasi proseslərə laqeydliyini, onlarda iştirak etməkdən imtinanı, o cümlədən, seçkilərə laqeyd qalmağı ifadə edir.

İkincisi, absenteizmin tədricən cəmiyyətdə geniş kütləni əhatə edən oturuşmuş psixoloji apatiyaya çevrilməsi baş verməkdə idi. Bu, daha təhlükəli bir tendensiya qismində, bütövlükdə, toplumu siyasi və psixoloji olaraq dövlətə münasibətdə qeyri-müəyyənliyə, ən ifrat halında isə xaotik münasibət göstərməsinə aparıb çıxarırdı.

### b) "Antiavanqardizm" əhval-ruhiyyəsi

Üçüncüsü, toplumun dövlətə münasibətdə bu cür böhranlı, adekvat olmayan müstəviyə sürüklənməsi siyasi mühitdə bir bədbinlik yaradırdı. O cümlədən, hətta, siyasilər arasında "antiavanqardizm" əhval-ruhiyyəsini formalaşdırırdı. Avanqard fransızcadan tərcümədə (avant –irəlidə+garde – keşikçi) irəlidə gedən, qoruyan, xilas edən mənalarını verir. Avanqard bu mənada cəmiyyətin aparıcı kəsimidir. Əgər bir toplumda avanqard olmağa cəsarəti çatan kəsim yoxsa, gec və ya tez həmin toplum çökəcək.

### c) Siyasi avtarkiya bəlası

Belə bir gedişatın meydana gətirdiyi mənfi siyasi-ideoloji və psixoloji qüsur siyasi avtarkiyanın partiyaların fəliyyətinə getdikcə daha güclü sirayət etməsindən ibarətdir. Siyasi avtarkiya politoloji termin kimi yunancadan tərcümədə "özünütəminetmə" mənasını verir. Yəni dövlət orqanları elə addımlar atırlar ki, siyasi institutlar digər təsisatlardan təcrid olunurlar və qapalı siyasi sistem yaratmağa cəhd edirlər. Ola bilsin ki, burada siyasi sistemin ayrı-ayrı təşkilati strukturları, onların müəyyən növləri özünütəcrid etməyə meyillənsin. Hər bir halda, siyasi avtarkiya ölkə miqyasında siyasi kommunikasiyada ciddi pozuntular, kəsilmələr, anlaşılmazlıqlar və ancaq "özü ilə məşğul olmaq" əlamətlərinin meydana gəlməsinə səbəb olur.

Siyasi partiyalara onun təsiri hər bir partiyanın digərini inkar etməsində, özündən başqasını qəbul etməməkdə və birləşməni "gəl mənim yanımda dur" təkəbbür məntiqi çərçivəsində qavramasında təzahür edir. Bununla bir tərəfdən, siyasi mühit özü qapanır, digər tərəfdən isə, bütövlükdə, cəmiyyətin bütün digər sahələri üçün qapanır.

Bütün bunlar siyasi partiyaların adi dialoqa belə hazır olmadığını göstərir. Üstəlik, onlar arasında hər hansı siyasi kommunikasiya ziddiyyətli və nəticə verməyən proses xarakteri alır. Qarşılıqlı ittihamlar baş alıb gedir. Siyasi partiyaların hər biri lider olmağı düşünür və bunun üçün bütün qanunsuz üsullardan istifadə etməyə hazır olur.

Bunlara müstəqilliyini əldə etmiş dövlətlərin totalitar rejimdə uzun müddət yaşaması ciddi təsir edir. Maraqlı və paradoksaldır ki, bu növ cəmiyyətlərin sadə insanları belə yeniləşmək, dəyişmək, azad siyasi fəaliyyət göstərmək istəmirlər. Onlar kənar əmrlərə açıq qalırlar. Siyasi partiya səviyyəsində, bu, kənar qüvvələrin maliyyə və maddi-texniki yardımı ilə bir qrup insanın partiya yaratmaq istəyində ifadə olunur. Nəticədə, ölkədə cəmiyyətin daxili tələbinə uyğun olmayan və faktiki olaraq, ölkənin çökməsinə xidmət edən partiyalar da meydana gəlir. Ancaq onların adları millilik baxımından çəkici olur.

### d) Anarxizm varlığı və "ictimai veto" yoxluğu

Yekun olaraq bu proseslər cəmiyyətdə "anarxiya" adlanan halın yaranması və toplumun "veto" qoymaq qabiliyyətini, hissiyyatını, davranışını itirməsi ilə nəticələnir. "Anarxizm" elə siyasi cərəyandır ki, dövlətin məhv olmasını başlıca məqsəd sayır və onu məcburedici istənilən hakimliklə əvəz etməyə hazır olur. Bunun siyasi anlamı dərindir və zahirən adi görünür. Anarxizm sistemli hal aldıqda ondan yaxa qurtarmaq çox çətin olur. Fərdlər xəyali olaraq özlərini azad könüllü davrananlar kimi hiss edirlər və bu, onlarda yalançı təsəvvürlər formalaşdırır. Ona görə də anarxizmin siyasi təhlükəsi böyükdür.

Anarxizm xüsusilə bizim "ictimai veto" (lat. veto – qadağan edirəm) adlandırdığımız hal olmayanda və ya o, iflasa uğrayanda cəmiyyəti fəlakət həddinə çatdırır. Çünki "ictimai veto" toplumun öz-özünə qadağa qoya bilməsidir və bu mənada cəmiyyətin "siyasi immunitet sisteminə" daxildir. Əgər cəmiyyət özünə dağılmamaq qadağası qoya bilmirsə, deməli müqavimət gücünü itirmişdir. O halda siyasi partiyalar da avtomatik olaraq "Don Kixot rolu"nu oynamağa başlayırlar. Bu da öz növbəsində hakim elitanın səmərəsizliyinə yol açır. Eyni zamanda, hakimiyyətin iflası əlamətləri özünü göstərir. Və volyuntarist (lat. voluntas – iradə) canatmalar artır. Bu, özünü fərdlərin öz subyektiv arzularından çıxış etmələri fonunda toplum maraqlarını inkar etməsində göstərir. Ən yüksək siyasi səviyyədə bu proses hakimiyyətə olan "etibar krediti"nin tükənməsinə və onun "etibarsızlıq votumu"na çevrilməsinə aparır (lat. votum – istək, iradə).

### Böhranlar içində siyasi dialoq

Vurğuladığımız siyasi mahiyyətli xarakteristikalar keçən əsrin 90-cı illərinin əvvəllərində, demək olar ki, müstəqilliyini əldə etmiş bütün ölkələrdə bu və ya digər dərəcədə özünü göstərmişdir. Onların hər biri üçün uğurlu dövlət quruculuğu bu kimi mənfi tendensiyaların aradan qaldırılmasına sıx bağlı idi. Bu prosesdə siyasi partiyaların bir-birinə sivil münasibətlər göstərməsi heç də axırıncı yeri tutmurdu.

Ulu öndər Heydər Əliyev bu vəzifənin öhdəsindən böyük məharətlə gəldi. Heydər Əliyev əvvəlcə siyasi mühitdən radikallığı götürdü. Radikal davranışın hər bir forması artıq norma və nümunə kimi deyil, dövlətçiliyə qarşı olan fakt kimi qəbul edildi. Bura həm də millətçiliyin radikal formasını təmsil edən qruplar da daxil oldu. Onlar mümkündür ki, Azərbaycanın xeyrinə fəaliyyət göstərdiklərinə əmin idilər. Lakin realpolitika və ölkədəki real vəziyyət prizmasında zərərli idilər. Bu səbəbdən, bütün siyasi partiyalar ideoloji və feili radikalizmdən uzaq durmalı idilər.

Ulu öndər bununla yanaşı, "Siyasi partiyalar haqqında" Qanun vasitəsilə sivil və demokratik şərtlər daxilində partiyaların müstəqil və azad fəaliyyətini təmin etdi. Burada YAP-ın bir partiya olaraq nümunə göstərməsi çox əhəmiyyətli idi. Bununla Heydər Əliyev göstərirdi ki, bir siyasi partiya qanun çərçivəsində fəaliyyət göstərirsə və milli maraqlara üstünlük verirsə, onun fəaliyyəti üçün heç bir qadağa yoxdur. YAP nümunə olmaqla, Azərbaycanda, ümumiyyətlə, siyasi partiyalar arasında münasibətlərin sivil müstəviyə keçməsinə böyük töhfə vermişdir.

Nəhayət, siyasi partiyalar arasında münasibətlərin yenidən formalaşmasında Ulu öndərin onları dövlətçilik naminə fəaliyyətə istiqamətləndirməsi ciddi rol oynadı. Əvvəlcə, bunu partiyalar özlərinə qarşı qərəz kimi qəbul etdilər. Lakin zaman-zaman əldə olunan uğurlar Heydər Əliyevin tam haqlı olduğunu göstərdi. Bununla siyasi partiyalarda iki tendensiya güclənməyə başladı.

Birincisi, onların sayının sürətlə artması prosesi səngidi. Başqa postsovet ölkələrində, bu, ya donmuş haldadır, ya da bir anarxiya mövcuddur. Azərbaycanda isə konkret hakimiyyət – siyasi partiyalar dialoqu nəticəsində partiyalar siyasi seçim etmişlər.

İkincisi, müxalifət partiyaları YAP-a qarşı düşmən mövqe tutmağın doğru olmadığını anlamağa başladılar. Nəticədə, onların bir qismi hakim partiyaya yaxın olmağa can atdılar. Digər qismi isə daha mötədil mövqe tutdu. Çox az hissə barışmaz mövqedə qaldı.

Bununla bir tərəfdən, Azərbaycan siyasi səhnəsində yeni nizam yarandı, digər tərəfdən isə, köhnə dağınıqlıq, bir-birindən və cəmiyyətdən təcridolunma halları səngidi. Faktiki olaraq, XXI əsrin başlanğıcına Azərbaycan siyasi partiyaları yeni münasibətlər sisteminə qədəm qoymuşdular. Ancaq bu mərhələdən sonra daha çətin və mürəkkəb bir mərhələ gəlirdi.

### Yeni siyasi dialoq modeli

Məsələ ondan ibarətdir ki, XXI əsrdə müstəqil dövlətlərin siyasi mühitinə demokratiya, azadlıq və liberalizim adı altında kənardan olan təsirlər daha da güclənməyə başladı. Üstəlik, yeni mərhələdə hər bir partiya özünü "dövlət naminə mübarizə aparan" kimi təqdim edirdi. Hətta korrupsiyaya, milli dəyərlərin qorunmasına, söz azadlığına, demokratik köklü yeniləşməyə çağırışlar fonunda özlərinin əsl simalarını gizlədirdilər. "Ərəb baharı" qlobal miqyasda bu tendensiyanın konkret təzahürü idi. "Rəngli inqilablar" postsovet məkanı üçün siyasi-ideoloji riyakarlıq, geosiyasi pozuculuq, bir qismin hökmranlığını təmin etməyə yönəlmiş davranış modeli idi. Onun ən çox ağrısını Ukrayna, Gürcüstan, Qırğızıstan öz üzərlərində hiss etdilər və indi də Ermənistan çəkir.

Deməli, məsələ XXI əsrin gəlişi ilə daxili sərhədi aşaraq regional və qlobal miqyasda aktuallaşmışdı. Bu isə o deməkdir ki, partiyalar arasında siyasi dialoq artıq ölkədaxili məsələ deyildir, onu qlobal miqyasda gedən proseslər vasitəsilə də idarə etməyə çalışırdılar.

Belə bir mürəkkəb, dolaşıq və çoxaspektləri olan şərtlər daxilində Azərbaycanda siyasi dialoqu təşkil etmək və onu dövlətçilik naminə davamlı hala salmaq böyük liderlik qüdrəti və siyasi-diplomatik məharət tələb edir. Real olaraq isə siyasi dialoqu siyasi sinerjinin atributuna çevirmək demək idi. Prezident İlham Əliyev bunun çox gözəl nümunəsini yaratmışdır.

Hər şeydən öncə, Prezident kimi, dövlətçilik naminə böyük fəaliyyət göstərmişdir. Bu, bir tərəfərdən, cəmiyyətdə absenteizmi, antiavanqardizmi, siyasi avtarkiyanı, anarxizmi tamamilə aradan qaldırmışdır, digər tərəfdən isə, toplumun siyasi müqavimətini, onun "ictimai veto" qoymaq canatmasını dirçəldərək siyasi sinerjinin elementinə çevirmişdir. Cənab İlham Əliyev həyata keçirdiyi proqramlarla siyasi partiyalarda dövlətçiliyə daha böyük maraq yarada bilmişdir. Paralel olaraq, siyasi partiyalarla təşkil edilən dialoqlar və müzakirələr öz bəhrəsini vermişdir. Bunun iki nəticəsini vurğulamaq istərdik.

Birincisi, siyasi partiyaların hakimiyyətə dəstəyi artmışdır. Çünki YAP-ın bir partiya, İlham Əliyevin də Prezident – lider kimi Azərbaycan dövlətçiliyinə daha səmərəli xidmət etdiyinə əminlik yaranmışdır.

İkincisi, siyasi partiyaların sayı azalmışdır. Bunun da səbəbi kimi, dialoqlarda da aydın olmuşdur ki, Azərbaycan iqtidarı dövlət naminə kifayət qədər faydalı iş görür və bu mənada bir sıra partiyanın qarşısına qoyduğu məqsədləri faktiki olaraq yüksək səviyyədə reallaşdırır. Heç bir müxalif partiya həmin siyasi qüdrətə, potensiala və məharətə malik deyildir. Bunun fonunda xeyli sayda partiya sayca çoxalmağı deyil, siyasi-ideoloji konsolidasiyanı daha vacib hesab etməyə başlamışdır.

Bu proses XXI əsrdə Azərbaycanda çox maraqlı siyasi tendensiyadan xəbər verir. Onun fəlsəfi-sinergetik təhlili bir sıra əhəmiyyətli məqamları aydınlaşdırmağa imkan yaradır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***"XQ"nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# İrəvan iflas etmiş separatçılığı dirçəltməyə çalışır

## Sergey Kornauxov nələri açıqlayır?



**Sən demə, İrəvanda qondarma "Artsax parlamenti"nin iclası keçirilibmiş. Özü də gizli şəkildə. Bu barədə rusiyalı publisist və ictimai xadim Sergey Kornauxov özünün "Telegram" kanalında yazıb. O, sözügedən iclasla bağlı rəsmi məlumatın olmadığını bildirib. Eyni zamanda, vurğulayıb ki, "Artsax parlamenti"nin gizli toplantısında saxta deputatların hamısı iştirak edib, həmçinin onların sırasına daha ikisi də əlavə olunub. Hələ yenilər təntənəli surətdə and da içiblər. Bir sözlə, S.Kornauxov filmlərdəki masson lojalarının toplantısına bənzər hadisədən bəhs edib. O, iclasda işçi qrupunun yaradıldığını diqqətə çatdırıb və əlavə edib ki, həmin qrup beynəlxalq platformalarda "Artsax"dan olan "qaçqınların" öz evlərinə qayıtmaları istiqamətində fəaliyyət göstərəcək.**

Ermənistan hökumətinin bütün nümayəndələrinin belə bir iclasın təşkilinə qəti şəkildə etirazından söz açan S.Kornauxov onların "Artsax"da hakimiyyət institutlarının saxlanmasının İrəvanın milli təhlükəsizliyinə təhdid olduğunu dilə gətirmələrinin üzərində dayanıb. Əlbəttə, mövcud xüsusda rusiyalı ictimai-siyasi xadimin daha nələri diqqətə çatdırdığına nəzər salacağıq. Həmçinin onun nə üçün bu mövzuya yer ayırmasından danışacağıq. Hər halda, uzun müddət Rusiyanın hüquq-mühafizə orqanlarında çalışmış bir adam heç də təsadüfən bu məsələ barədə yazmazdı.

***

Nikol Paşinyan iqtidarının Ermənistan ərazisində separatçı quruluşun toplantısının təşkili barədə məlumatsızlığı qeyri-mümkündür. O qədər adamın bir yerə toplanmasının mərkəzlə razılaşdırılmadığına inanmaq sadəlövhlükdür. Çox da ki, ortada Ermənistanın milli təhlükəsizliyi var. Guya, onu düşünürlər? Paşinyan iqtidarı iflic durumdadır. Digər yandan, nəinki milli təhlükəsizliyi, ümumən varlığı kənar qüvvələrdən asılı olan bir ölkədəki hakimiyyətin milli maraqları nəzərə almasından gülünc heç nə yoxdur. Nikol və komandası yalnız hakimiyyət kreslosundan möhkəm yapışmağı əsas götürür.

Ancaq Ermənistan iqtidarı "Artsax parlamenti"nin gizli toplantısına meydan verərkən düşünməlidir. Nəinki, o, eyni zamanda, İrəvanın Qərbdəki dostları da. İkincilər separatçı mahiyyətli bir ölkəni müdafiə etdiklərinin fərqinə varmalıdırlar. Fərqinə varmalıdırlar və ağızları köpüklənə-köpüklənə Cənubi Qafqazda sülhdən danışanda, sülhə əngəl törədən faktorları götür-qoy etməlidirlər. Bilməlidirlər ki, qorumağa çalışdıqları erməni hakimiyyəti dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipinə zidd mövqe tutaraq, qorxunc presedent yaratmaqla məşğuldur. Bu gün Ermənistanı müdafiə edən qərblilər bilməlidirlər ki, "separatçılıq bombasının" Avropada partlaması elə də çətin iş deyil.

Diqqət yetirək, bilavasitə açıqlanmasa da, qondarma "parlament"in iclası kimi ictimailəşmiş toplantıda, faktiki olaraq, bu il oktyabrın 5-də Avropa Siyasi Birliyinin Qranada sammiti çərçivəsində keçirilmiş görüşdə qəbul edilmiş sənədlərin məzmunu üzərində dayanılıb. O sənədlərin ki, orada baş nazir N.Paşinyanla yanaşı, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin, Fransa prezidenti Emmanuel Makronun və Almaniya Kansleri Olaf Şoltsun imzaları var. Onu da bildirək ki, N.Paşinyan həmin sənədlərdə əksini tapanlara söykənərək, onları Azərbaycanla sülh gündəliyində korrektəsi mümkünsüz məsələlər kimi qiymətləndirmişdi. Elə nəticə hasil olmuşdu ki, sülhün Qranada gündəliyi adlı nə isə var. Söhbət Qarabağ ermənilərinin bölgəyə xüsusi statusla qayıtmalarından gedir. İndi "Artsax parlamenti" də həmin istiqamətdə beynəlxalq miqyasda iş aparacaqmış. Aydın olur ki, Paşinyan iqtidarı Qranada gündəliyini ehkamlaşdırmağı bacarmadığı üçün topu, necə deyərlər, "artsaxlılara" ötürür. Göründüyü kimi, ortada Cənubi Qafqazda sülh baxımından aşkar riyakarlıq var. Şübhəsiz, bunu edən erməni iqtidarı və havadarlarıdır.

***

İndi isə S.Kornauxovun nə üçün gizliliyi pozmasından danışaq. Nəzərə alaq ki, o, məsələni sırf separatçılıq kimi təqdim etmir. Qarabağ ermənilərinin bölgəyə qayıdışı üzərində dayanan Kornauxovun sözlərindən gəlinən qənaət budur ki, Ermənistan dövlətinin qaçqın problemini həll etməsi mümkünsüzdür. "Artsax"ın özü üçün qaçqınların qayıtması bir çox problemləri həll edə bilər", – deyən publisist Azərbaycanın təhlükəsizlik təminatlarını yada salır. Ancaq bu yadasalmanın heç də tam şəkildə mütərəqqi məcrada olmadığı aşkardır. O bildirir ki, Azərbaycan yerli əhalinin, yəni Qarabağın erməni sakinlərinin təhlükəsizliyini, yeni şəraitdə onların mədəni və dini inteqrasiya imkanlarını təmin etmək üçün tədbirlər görməyə məcbur qalacaq və guya, bu, kilsə və monastırların qorunub saxlanacağı deməkdir: "Ən əsası isə ermənilərlə azərbaycanlılar arasında dinc dialoqun zəruriliyi ilə bağlı sonsuz şüarlar toplusu məna kəsb edəcək".

Bəs, yaxşı S.Kornauxov bütün bunları elə-beləmi gündəmə gətirir? Axı, Ermənistan baş naziri Nikol Paşinyan da deyib ki, indiki şəraitdə Qarabağın erməni əhalisinin əvvəlki yaşayış yerlərinə qayıtmaları mümkünsüzdür. Nikolun sözləri onu fikirləşməyə əsas verib ki, İrəvan Bakının təhlükəsizlik təminatlarına etimad göstərmir. Yuxarıda onun və komandasının Azərbaycan üçün məqbul olmayan hansı təminatları əsas götürdüyünü vurğuladıq. Deməli, Kornauxov Rusiyanın Qarabağ erməniləri formulunu əsas tutan dairələrinin fikirlərini ifadə edir. Bu dairələr bölgədə erməni əhalinin olmayacağı təqdirdə, Rusiya sülhməramlı kontingentinə də ehtiyacın duyulmayacağını anlayırlar. Ona görə də Qarabağa qayıdış üzərində dayanır və canını tapşırmış "Artsax parlamenti"nin gizli iclasını ictimailəşdirmək yolu tuturlar. Onlar üçün qayıdışın hansı əsasda yaşanmasının heç bir önəmi yoxdur. Əsas odur ki, bu, baş versin. Ona görə də erməni avantürizmini şirnikləndirmək yolu tuturlar. Təxminən belə: qayıdın, öz ərazinizə hakim olun. Azərbaycan məcbur qalıb siz istəyəni edəcək. Əlbəttə, yanaşmada böyük məkrin olduğu aşkardır.

Başqa bir sual da yaranır: S.Kornauxov vasitəsilə "Artsax parlamentinin" gizli iclasını ictimailəşdirənlər məsələnin Ermənistan üçün hansı təhlükəli nəticələr doğura biləcəyini hesablamırlar? Əlbəttə, hesablamırlar, çünki onlar üçün bunun heç bir əhəmiyyəti yoxdur. Ona görə ki, indiki anti-Rusiya ovqatına köklənmiş Qərbmeyilli Ermənistanın təhlükədə olmağı daha münasib variantdır. Kornauxov həm də buna görə ortadadır.

*R.ƏVƏZ*
*XQ*

Köşə

# Ermənistanda daldan atılan daşlar hara dəyir?!..

**Ermənistanda yenidən ara qarışıb. Bəzi ictimai qüvvələr – "HayaKve" (Ermənistan referendumu və "Haya Vote") təşəbbüsünün tərəfdarları parlamentin qarşısında toplaşaraq ölkənin Cinayət Məcəlləsinə iki bəndin əlavə edilməsini təklif edirlər. Əslində layihə bütünlüklə təşəbbüs tərəfindən irəli sürülüb. Birinci təklif belədir: "Ermənistan Respublikasının adından çıxış edən və öz hərəkətləri ilə "Artsax"ı başqa dövlətin bir hissəsi kimi tanıyan dövlət məmuru 10 ildən 15 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır".**



**Paşa ƏMİRCANOV**
**pasha.emircanov@mail.ru**

İkinci təklif isə Ermənistan Respublikası adından çıxış edən, öz bəyanatları və digər hərəkətləri ilə 1915-ci ildə Osmanlı imperiyasında "erməni soyqırımı" faktını inkar edən və ya onun tarixi əhəmiyyətini və təhlükəsini azaldan dövlət məmurunun 10 ildən 15 ilə qədər bir müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılmasını nəzərdə tutur.

"HayaKve" ictimai-siyasi təşəbbüsü Ermənistan parlamentinin binası qarşısında dövlət və hüquq məsələləri komitəsində baxılan qanun layihəsinə dəstək məqsədilə mitinq keçirir və təşəbbüsü dəstəkləyənlərin hamısını parlamentin qarşısına dəvət edərək aksiyaya qoşulmağa çağırır.

Bu, hələ işin yarısıdır. Ermənistanın Cinayət Məcəlləsinə təklif edilən əlavələrin nəzərə alınıb-alınmayacağı hələ məlum deyil. Hökumətin separatçı "Artsax" rəhbərlərini tanımaqdan və onları maliyyələşdirməkdən imtina etdiyi məlumdur. Üstəlik, baş nazir keçmiş "Dağlıq Qarabağ" da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Son vaxtlar sülh müqaviləsi və sərhədlərin delimitasiyası ilə bağlı danışıqlar da intensivləşməkdədir. Odur ki, "HayaKve"nin təşəbbüsünün nəzərə alınacağı şübhə doğurur.

Maraqlı olan Ermənistanda ictimai xadim və publisist kimi tanınan Ovanes İşxanyanın parlamentin binası yaxınlığında jurnalistlərə dedikləridir. "HayaKve" təşəbbüsünün aksiyasına qatılan İşxanyan deyib: "Erməni Artsaxının səhifəsini bağlanmış hesab etmək mümkün deyil, çünki Artsax bizim mülkümüzdür və bu, bizim Vətənimiz, əcdadlarımızın məskənidir".

Onun sözlərinə görə, "Artsax"ı ağlınızdan çıxarmaq eyni şeyi Ermənistana münasibətdə də tədricən etmək deməkdir: "Əgər biz Artsaxın olmaması faktı ilə barışa bilsək, onda Sünikin olmayacağı, Tavuş ərazilərinin təslim olacağı və erməni dövlətçiliyinin olmaya biləcəyi ilə də barışa bilərik".

Onun fikrincə, "Artsax" xalqının geri qayıtması üçün imkanlar yaratmaq məqsədilə "Artsax" uğrunda mübarizəyə müdaxilə edənləri kənarlaşdırmaq lazımdır: "Bu maneənin aradan qaldırılması yolunda Ermənistanda, təbii ki, əməkdaşlıq mədəniyyəti formalaşmalıdır. "AyaKve" təşəbbüsü bu mədəniyyəti formalaşdıranlardan biridir".

Təşəbbüsün koordinatoru Avetik Çalabyan isə az qala "Artsax"ın itirildiyi ilə barışıb və hesab edir ki, bu gün başlanan mübarizə onun nə vaxtsa "qaytarılması üçün açar ola bilər". O deyir: "Artsax orada yaşayanlara məxsusdur. Əgər bu gün onlar vəziyyətin tələbi ilə Ermənistanda yaşayırlarsa, hər şeyi etmək lazımdır ki, nə vaxtsa Artsaxa qayıda bilsinlər. "HayaKve" bizə, bax, bunu etməyə imkan yaratmaq istəyir".

Budur, Ermənistanda bir çoxları bu ilin 19-20 sentyabr hadisələrindən sonra Qarabağ ermənilərinin könüllü surətdə ərazini tərk etməsindən peşman olublar. İndi "bəlkə də qaytardılar" prinsipi ilə fəaliyyət göstərməyə çalışırlar. Amma bizim atalar sözlərindən birində deyilir ki, daldan atılan daş topuğa dəyir. Ermənistanda belə daşların hara dəydiyini bilməsək də, görürük ki, artıq qatar gedib və özü ilə təxminən 30 illik bir müddətdə yaşadıqları ərazidə böyük günahlara batmış bir toplumu – Qarabağ ermənilərini də aparıb.

Təbii ki, bu köç zamanı Azərbaycanın xoş niyyəti, ermənilərə Qarabağda qalıb həyatlarını davam etdirmələri ilə bağlı çağırışları nəzərə alınmadı. Təəssüf ki, Ermənistan və qondarma separatçı rejimin başbilənləri regionda dinc yanaşı yaşamaq əvəzinə, ermənilərin köçündən Bakı əleyhinə sui-istifadə etmək xətti götürdülər. Bax, erməni havadarlarının bu gün Bakıya iftiralar ataraq, təzyiqlər göstərmək cəhdi də məhz Ermənistan siyasilərinin hoqqabazlığından başqa bir şey deyil. Guya Fransa, ABŞ, yaxud Avropa İttifaqı Qarabağdan könüllü şəkildə getmiş erməniləri geri qaytaracaq. Amma bütün bunlar xam xəyallar olaraq qalır.

Elə Ermənistan parlamentinin qarşısında "Artsax"a gün ağlamaq istəyənlərin təşəbbüsü də, beləcə, nəticəsiz cəhd olaraq qalacaq. Artıq hökumətin parlament binası qarşısına polis qüvvələrini cəlb etdiyi barədə də xəbərlər gəlməkdədir. Görünür, bu ölkədə daldan atılan daşlar polis dəyənəyi ilə bilikdə topuğa deyil, başa dəyir...

# Bakı ilə İrəvan arasında çərçivə sazişi: Deklorasiya, yoxsa ciddi sənəd?

**"2023-cü ilin sonunadək Azərbaycan və Ermənistan arasında çərçivə sülh sazişinin imzalanması heç vaxt olmadığı qədər real görünsə də, problemin həlli o qədərdə asan deyil". Bu sözləri "Caliber.az" saytının tanınmış siyasi analitiki Orxan Amaşov "Düşüncələr" müəllif verilişinin növbəti buraxılışında söyləyib. Verilişin mətni əsasında hazırladığımız icmalı oxucuların diqqətinə çatdırırıq.**



### "Vaşinqtonun təzyiqinə qarşı Bakının qətiyyətini görən İrəvan yanıldığını anladı"

2023-cü ilin sonu yaxınlaşdıqca Qarabağ münaqişəsinə birdəfəlik nöqtə qoyacaq Azərbaycan–Ermənistan sülh sazişinin imzalanması ətrafında danışıqlar hiss olunacaq aktuallıq kəsb etməkdədir.

Həqiqətən də, Azərbaycan Qarabağ üzərində özünün suverenliyini tam bərpa edəndən sonra tərəflər arasında razılaşmanın imzalanması şansı əhəmiyyətli dərəcədə artdı. İrəvan 70 günlük ləngimənin ardınca Bakının təklif etdiyi sülh sazişi variantına cavabını göndərdi. Noyabrın 30-da sərhədlərin delimitasiyası üzrə hökumətlərarası komissiyanın neytral təmas zolağında baş tutmuş görüşünə rəqəmsal diplomatiyaya ikitərəfli dialoqun real əlavəsinin sübutu kimi baxmaq olar. Güman edə bilərik ki, Ermənistanın cavabı ləngitməsini iki önəmli amil şərtləndirir. Birincisi, İrəvan, mümkündür ki, Azərbaycanın sentyabrın 19-20-də Qarabağda həyata keçirdiyi antiterror tədbirlərindən sonra vasitəçilərin, eləcə də beynəlxalq tərəfdaşlarının buna ciddi və əhəmiyyətli reaksiyasına ümid bağlayırdı. İkincisi, İrəvanın, doğrudan da, BMT-nin Beynəlxalq Ədalət Məhkəməsində baxılan müraciəti ilə bağlı konkret gözləntiləri vardı. Ermənistan isteblişmentinin bəzi personaları hesab edirdilər ki, məhkəmənin qəbul edəcəyi müvəqqəti tədbirlər haqqında qərarı Azərbaycanın suverenliyinə kölgə salmaq gücündə olacaq.

Heyhat, bu ümudlər özünü doğrultmadı. Üstəlik, Vaşinqtonun məlum təzyiqləri qarşısında Bakının nümayiş etdirdiyi güc və iradə İrəvanı yanıldığını bir daha anlamağa məcbur etdi. Əgər belə demək mümkünsə, gələcəyini ikitərəfli təmaslar üzərində qurmağın alternativinin olmadığını başa düşdü. Düzdür, bu zaman Azərbaycan–ABŞ münasibətlərində qısamüddətli gərginlik də yaşandı.

Beləliklə, tərəflərin qarşılaşdığı reallıq ondan ibarətdir ki, hazırda sülh müqaviləsinin imzalanması üçün yaxşı imkan yaranıb. Sual doğuran məsələ sadəcə Bakı və İrəvanın hansı razılaşmanı imzalaya biləcəkləri və hadisələrin bu cür inkişafına nəyin və kimlərin mane ola biləcəyi ilə bağlıdır.

### "Üçtərəfli bəyanatın 9-cu bəndindən imtinaya Rusiyanın necə reaksiya verəcəyi bilinmir"



Əsas sual isə Rusiyanın 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndindən rəsmi İrəvanın imtinasına necə reaksiya verəcəyidir. Hələlik bu sualın cavabı açıq qalır. Danışıqların indiki mərhələsində biz bütün məsələlərin əhatə olunduğu və detallı sülh müqaviləsindən danışa bilmərik. Söhbət tərəflər arasında heç də mövcud fikir ayrılıqlarına son qoymayacaq çərçivə sülh sazişindən gedir. Amma həmin sənəd 2020-ci ilin 10 noyabrından sonra başlayan, münasibətlərin normallaşması ilə bağlı əsas prinsiplərin daxil edildiyi prosesin yekunu və daha sonra dövlətlərarası tamhüquqlu sülh müqaviləsinə çevriləcək, gələcək tərəqqinin təməlini yaradacaq bazis rolunu oynamalıdır.

Həddən artıq vacib sayılan məsələ qarşılıqlı şəkildə razılaşdırılan prinsipləri tərəflərin eyni qaydada qəbul etməsidir. Bu zaman sonradan münasibətlərdə çatların və yeni gərginliyin yaranmasına gətirib çıxara biləcək təhlükəli ikimənalılığa yer olmamalıdır. Necə ki, 2020-ci il 10 noyabr Bəyanatının bəzi bəndləri üzrə Bakı və İrəvan arasında ortaya çıxan fikir ayrılıqları 2023-cü ilin sentyabr ayına qədər "siyasi hərarəti aşağı düşməyən" gərginliyə səbəb olmuşdu.

Eyni zamanda, Bakı və İrəvanın kommunikasiyaların açılması məsələsində nə qədər irəli gedə biləcəkləri sualı ortaya çıxır. Yəni, çərçivə sülh sazişi imzalanan zaman tərəflərin Zəngəzur dəhlizi ilə əlaqədar mövqelərinin dəqiqlik dərəcəsi nə qədər olacaq? Hər şeydən göründüyü kimi, həmin sənəddə ölkələrin suverenliyi prinsipi və ikitərəfli əlaqə yollarına münasibətdə qarşılıqlı anlaşma, bir də üçtərəfli bəyanatın 9-cu bəndindən imtinaya Rusiyanın hansı reaksiyanı göstərəcəyi məsələsi də öz əksini tapmalıdır.

Həm nəzəri, həm də praktiki cəhətdən Bakı və İrəvan, həqiqətən də, ikitərəfli platformada yeni saziş barədə ortaq məxrəcə gələ bilərlər ki, bununla Moskva könülsüz də razılaşmalı olacaq. Bunun əyani misalı: Azərbaycan və Ermənistan Praqada ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı etirafı barədə razılığa gələndə Rusiya üzləşdiyi faktı qəbul etmək məcburiyyətində qaldı. Amma Kremlin bu dəfə necə reaksiya verəcəyinin hələlik dəqiq cavabını bilmirik. Moskva tərəfindən ehtimal edilən maneçilik cəhdləri ciddi problemə səbəb ola bilər.

### "Bakı İrəvanla deklorasiyadan daha böyük əhəmiyyətə malik çərçivə sövdələşməsini istəyir"

Ortaya çıxa biləcək başqa bir maneə kimi anklavlar məsələsində Bakı və İrəvan arasında fikir ayrılığını göstərmək olar. Buna həm də 2022-ci ilin sentyabrında yaşanan lokal hərbi gərginlik nəticəsində şərti sərhəddə baş vermiş bəzi mövqe dəyişikliyi səbəb olub.

Bizə elə gəlir ki, Bakı indiki məqamda İrəvanla deklorasiyadan daha böyük əhəmiyyətə, konkret məzmuna malik çərçivə sövdələşməsini imzalamaq istəyir. Bu zaman İrəvana isə özünün ərazisinin coğrafi-riyazi konturlarından tam əmin olacağı və Zəngəzur marşrutu üzərində Rusiyanın nəzarət elementini aradan qaldıracağı razılaşma lazımdır.

Əlbəttə ki, Azərbaycan və Ermənistan arasında fikir ayrılıqlarının ümumi landşaftı görünəndən daha mürəkkəbdir. İntəhası, indi bu barədə yalnız ona görə müxtəsər bəhs etmirik ki, yığcamlıq istedadın bacısı, çox danışmaq isə aydınlığın düşmənidir. Fikirlərimizi həm də ona görə qısa ifadə edirik ki, indi bəzi məsələlər özünün konkret formasını tapmayıb. Bunsuz perspektiv çərçivə sazişinin nə qədər real olduğunu anlamaq elə də asan deyil.

Yekunda qısaca onu da nəzərə çatdırmaq istəyirik ki, hazırda Azərbaycanla Ermənistan arasında sülh razılaşması heç vaxt olmadığı qədər daha real görünür. Amma təəssüf ki, bu reallıq problemin həll edildiyi qənaətinə gəlməyimiz üçün yetərincə deyil.

*Hazırladı:*
*B.İMRAN*
*XQ*

# Milli sahibkarlıq strategiyasının banisi



**Ötən əsrin sonlarına doğru "soyuq müharibə"nin başa çatması zəminində cərəyan edən qlobal miqyaslı proseslərin məntiqi yekunu olaraq Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinə əlverişli zəmin yaranmış, beləliklə xalqın qəlbində qubara çevrilmiş istiqlal ideyası nəhayət gerçəkləşmişdir. Fəqət, müstəqillik nemətinə qovuşan hər bir xalq ilkin mərhələdə onu qoruyub saxlamaq, möhkəmləndirmək, dövlətin gələcək inkişafına etibarlı bünövrə hazırlamaq kimi məsuliyyətli və çətin mərhələni də keçməli olur.**

1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayınadək respublikada hökm sürən acınacaqlı vəziyyət bunu bir daha təsdiqləyir. Həmin dövrdə sosial-iqtisadi tənəzzülün dərinləşməsi, insanların sosial rifah halının pisləşməsi, ictimai-siyasi sabitliyin, insan hüquqlarına təminatın olmaması, etnik-dini separatçılıq meyillərinin güclənməsi, cəbhə bölgəsindəki hərbi uğursuzluqlar və s. destruktiv proseslər respublikanın de-fakto müstəqilliyinə imkan vermirdi. Siyasi rəhbərliyin qətiyyətsizliyi, bütövlükdə, Azərbaycan dövlətçiliyinə ciddi təhlükəyə çevrilən neqativ meyillərin baş qaldırmasına – siyasi mübarizədə qanunsuz silahlı birləşmələrdən istifadəyə, etnik separatizmə, vətəndaş itaətsizliyinə gətirib çıxarmışdı.

1993-cü ilin iyun ayında Gəncədə baş qaldırmış qiyam isə ölkədəki hərc-mərcliyin, anarxiya mühitinin, siyasi hakimiyyətə qarşı total inamsızlığın kulminasiya nöqtəsinə yetişməsi idi. İyun ayının 9-da xalqın istəyi ilə Bakıya qayıdan ulu öndər Heydər Əliyevin iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri, oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkədəki kütləvi inamsızlıq, xaos və hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərinliyin tədricən azalmasına, sözün həqiqi mənasında, xalqın böyük fəlakətlərdən qurtulmasına imkan yaratmışdır.

Ümummilli lider Azərbaycanın yeni dövr üçün demokratik və iqtisadi inkişaf modelini müdrikliklə irəli sürmüş, eyni zamanda, bu mütərəqqi dəyişikliklərin ictimai şüurda tədricən qəbul olunması zərurətini önə çəkmişdir. Böyük strateqin ölkədə hüquq qaydalarının möhkəmləndirilməsi, yenicə təşəkkül tapmağa özəl sektorun inkişafına maneə yaradan korrupsiyaya və rüşvətxorluğa, məmur özbaşınalığına qarşı ilk prinsipial addımlarından biri də 1994-cü il avqustun 9-da imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" fərman olmuşdur. O dövr üçün səciyyəvi bir sıra neqativ hallar fərmanda geniş əksini tapmış, onların aradan qaldırılması üçün hüquq-mühafizə orqanlarının qarşısına mühüm vəzifələr qoyulmuş, habelə cinayətkarlıqla mübarizənin təkmilləşdirilməsi məqsədilə yeni strukturların yaradılmasının vacibliyi önə çəkilmişdir.

Sosial-iqtisadi inkişaf prosesində xarici kapital və sərmayə amilinin təkanverici rolunu nəzərə alan Heydər Əliyev xarici şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına da vacib məsələ kimi yanaşmışdır. İqtisadi inkişafın sürətləndirilməsinin, səmərəli sosial-iqtisadi islahatlar aparılmasının, investisiya layihələrinin həyata keçirilməsinin ümdə şərti kimi müstəqil Azərbaycanın yeni neft strategiyası işlənib hazırlamış və 1994-cü il sentyabrın 20-də dünyanın nüfuzlu 11 şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi" imzalanmışdır.

1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası hakimiyyət bölgüsü prinsipini təmin etməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını və vətədaşların sosial müdafiəsini dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şəraitin yaradılması, sahibkarlığa təminat verilməsi, rəqabət mexanizminin formalaşması və inkişafı, həmçinin rəqabətin qorunması ilə bağlı mühüm müddəalar əksini tapmışdır. Əsas Qanun siyasi və hüquqi deyil, iqtisadi islahatların reallaşdırılması üçün də hüquqi baza rolunu oynamış, vətəndaşların sosial təminat, mülkiyyət, azad sahibkarlıq və digər hüquqlarını təsbit etmişdir.

Ulu öndər ilk gündən onu da bəyan edirdi ki, sahibkarlığın inkişafı keçid iqtisadiyyatlı ölkələrin sosial-iqtisadi sisteminin yenidən qurulmasında, hökumətin qarşıya qoyduğu strateji məqsədlərin uğurla reallaşdırılmasında mühüm rol oynayır. Böyük strateqin Azərbaycan dövlətçiliyi qarşısındakı müstəsna xidmətlərindən biri də ölkədə orta təbəqənin, milli burjuaziyanın mövqelərinin möhkəmləndirilməsi olmuşdur. 1995-ci ildən bu sahədə həyata keçirilən kompleks tədbirlər sistemi respublikamızda orta sahibkar təbəqəsinin yaranıb təşəkkül tapması və cəmiyyətin aparıcı lokomotivinə çevrilməsi məqsədinə xidmət etmişdir.

Respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələləri diqqət mərkəzində saxlanılmışdır. İslahatların aparılması prosesində şəffaf mühitin formalaşdırılması baxımından respublika rəhbərinin "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" 1996-cı il 17 iyun tarixli fərmanının, habelə "Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" 1998-ci il 27 yanvar tarixli sərəncamının əhəmiyyəti də xüsusi vurğulanmalıdır.

Ümummilli liderin təşəbbüsü ilə 1997-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı" əhəmiyyətinə, aktuallığına və miqyasına görə milli sahibkarlığın inkişafında yeni mərhələnin əsasını qoymuş, bu sahədə dövlət siyasətinin başlıca prinsiplərini müəyyənləşdirmişdir.

Kiçik və orta sahibkarlıq subyektlərinin normal fəaliyyəti üçün sonrakı mərhələdə "Azərbaycan Respublikasında kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununa bəzi mütərəqqi dəyişiklik və əlavələr edilmiş, habelə "Haqsız rəqabət haqqında", "İnvestisiyaların qorunması haqqında", "İstehlak bazarı haqqında" və digər zəruri qanunlar qəbul edilmişdir. Bu qanunlar yerli və xarici sahibkarların təhlükəsiz və xüsusi risklilik tələb etməyən biznes fəaliyyətinə dövlət tərəfindən verilən hüquqi təminatı gücləndirmiş, investisiyaların qarşılıqlı təşviqinə və qorunmasına əsaslı zəmin formalaşdırmışdır.

Sahibkarlığın inkişafı baxımından hüquqi şəxslərin, eləcə də kommersiya qurumlarının dövlət qeydiyyatı və reyestri ilə bağlı məsələlərin həlli də əhəmiyyətli olmuşdur. 1996-cı ildə qəbul olunmuş "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" Qanun dövlət reyestrinin mərkəzləşdirilmiş qaydada aparılmasına, bu sahədəki süründürməçilik hallarının aradan qaldırılmasına zəmin yaratmışdır.

Ulu öndər Heydər Əliyev hər zaman iş adamlarının mənəvi hamisi kimi çıxış edərək bu təbəqənin milli iqtisadiyyatın "lokomotiv" qüvvəsinə çevrilməsinə çalışmış, mövcud problemlərin aşkarlanması məqsədilə dövlət-sahibkar dialoqunun genişləndirilməsində maraqlı olmuşdur. 2002-ci ilin 10 və 25 aprel tarixlərində yerli və xarici sahibkarlarla görüşən respublika rəhbəri onları üzləşdiyi problemlər barədə açıq danışmağa dəvət etmiş, yaxından dinləmiş, mövcud problemlərin aradan qaldırılması üçün aidiyyati dövlət qurumlarına zəruri tapşırıq və tövsiyələrini vermişdir. Həmin görüşlərin nəticəsi olaraq imzalanmış bir sıra vacib fərmanlar sahibkarlığın dəstəklənməsi və investisiya mühitinin daha da təkmilləşdirilməsi baxımından keyfiyyətcə yeni mərhələnin təməlini qoymuşdur.

Ümummilli lider Heydər Əliyevin 17 avqust 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (2002-2005-ci illər) Dövlət Proqramı" özəl sektorun inkişafını stimullaşdıran tədbirlərin davamı kimi mühüm əhəmiyyət kəsb etmiş, dövrün bir sıra reallıqları ilə şərtlənmişdir. Proqramın başlıca qayəsi sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi prosesinin təkmilləşdirilməsinə nail olmaqdan, kiçik və orta sahibkarlığın maliyyə-texniki imkanlarını yaxşılaşdırmaqdan, regionlarda bu sahənin inkişafını sürətləndirmək yolu ilə yeni iş yerlərinin yaradılmasından ibarət olmuşdur.

Sahibkarlığa dövlət maliyyə dəstəyinin hüquqi əsaslarının formalaşdırılması üçün ulu öndər Heydər Əliyev 27 avqust 2002-ci il tarixli fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondunun Əsasnaməsinin təsdiqləmiş və strukturunu formalaşdırmışdır. Hazırda Sahibkarlığın İnkişafı Fondu adlanan qurumun vəzifəsi ölkədə sahibkarlığın inkişafına maliyyə dəstəyi vermək, onlara müvəkkil banklar vasitəsilə güzəştli kreditlərin verilməsini təmin etmək, bir sözlə, iş adamlarının səmərəli biznes layihələrinin reallaşmasına yardımçı olmaqdır.

10 sentyabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət qayğısı haqqında", 28 sentyabr 2002-ci il tarixli "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" fərmanda dövlət qurumları ilə sahibkarlıq subyektləri arasında dərin kök salmış, həllini gözləyən bir sıra ciddi problemlər tam açıqlığı ilə göstərilmiş və onların aradan qaldırılması üçün kompleks islahatlar aparılmışdır. Fərmana əsasən, Daxili İşlər Nazirliyinin İqtisadi Cinayətkarlıqla Mübarizə İdarəsi ləğv edilmiş, məhkəmə sanksiyası olmadan hüquq-mühafizə orqanlarının sahibkarlıq fəaliyyətinə müdaxiləsi qadağan olunmuşdur.

Fərmanda o zamankı Vergilər Nazirliyinə səyyar vergi yoxlamalarının sayını azaltmaq, bir-birini təkrarlayan əsassız yoxlamalara yol verməmək, vergilərin əvvəlcədən qanunsuz ödənilməsinin, bank hesabları üzrə əməliyyatların qeyri-qanuni sürətdə məhdudlaşdırılması hallarının qarşısını almaq barədə ciddi tapşırıq verilmişdir. Eyni zamanda, şəhər və rayon icra hakimiyyətləri öz səlahiyyətləri daxilində nəzarət və yoxlama funksiyalarını həyata keçirən müxtəlif qurumları 10 gün müddətində ləğv etmişlər. Fərmanla, həmçinin Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisinin işçi heyəti 15 faiz, Vergilər Nazirliyinin işçi heyəti 40 faiz ixtisar edilmişdir. Sahibkarlıq subyektlərində nəzarət kitabçalarının yerləşdirilməsi də qanunsuz yoxlamaların sayının azaldılması baxımından uğurlu mexanizm kimi özünü təsdiqləmişdir.

Ümumilikdə, ulu öndər Heydər Əliyevin ciddi elmi əsaslarla təməlini qoyduğu sosial-iqtisadi siyasət strategiyası Azərbaycanın bütün həyati əhəmiyyətli sahələrində dinamik inkişaf və tərəqqini təmin etmiş, ölkədə milli sahibkarlar ordusu formalaşmış, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 75 faizə yüksəlmişdir.

Siyasətdə və dövlət idarəçiliyində mütərəqqi ənənələrinin qorunub saxlanılması hər bir xalqın sabit və davamlı inkişafı baxımından vacib əhəmiyyət daşıyır. Ümummilli lider Heydər Əliyev böyük müdrikliklə müəyyənləşdirdiyi milli inkişaf kursunu özündən sonra inamla davam etdirə biləcək layiqli siyasi varis yetişdirmiş lider kimi xalqının qəlbində yaşayır. Ölkəyə rəhbərlik etdiyi 20 il müddətində qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Azərbaycan Prezidenti İlham Əliyevin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə söykəndiyini göstərmiş, onun ictimai rəydə alternativsiz lider kimi qəbul edilməsini şərtləndirmişdir.

2003-cü ildən etibarən ölkədə sahibkarlığın inkişafına mane olan süni amillərin aradan qaldırılması, qeyri-neft sektorunun inkişafı, yeni istehsal müəssisələrinin yaradılması, regional bərabərsizliyin aradan qaldırılması, yoxsulluğun azaldılması, əhalinin sosial rifah halının yaxşılaşdırılması, infrastrukturun yeniləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar praktik nəticələrini verir. Rəsmi statistik məlumatlara əsasən, bu müddətdə Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) real ifadədə 3,6 dəfə, qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə, dövlət büdcəsinin xərcləri 30 dəfə artmışdır. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8 dəfə, o cümlədən ixrac 16,1 dəfə artmış, adambaşına düşən ÜDM 3 dəfəyə yaxın artaraq, 13 min 256 manat təşkil etmişdir.

Azərbaycanın strateji valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq hazırda 66 milyard ABŞ dollarını keçmişdir ki, bu göstərici birbaşa xarici borcumuzu 10 dəfə üstələyir. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiyanın həcmi 310,4 milyard dollar təşkil etmiş, bunun 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində son 20 ildə qeyri-neft ixracı 8 dəfədən çox artmış, dövlət büdcəsinin xərcləri 1,2 milyard manatdan 36,6 milyard manata çatmışdır.

Özəl sektora dövlət dəstəyinin gücləndirilməsi məsələləri ilk dəfə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il noyabrın 24-də imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanda əksini tapmışdır.

Dövlət başçısı hələ 1 fevral 2004-cü il tarixdə Bakı Biznes Mərkəzində yerli sahibkarlarla keçirdiyi görüşdə bu sahədə mövcud problemlərin həlli ilə bağlı tapşırıqlar vermiş, sonrakı mərhələdə bu məqsədlə imzaladığı dərman və sərəncamların icrasını daim diqqət mərkəzində saxlamışdır. Həmin tarixi görüşdən cəmi bir neçə gün sonra imzalanmış "Azərbaycan Respubikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" regionların tarazlı və davamlı inkişafı ilə yanaşı, bölgələrdə özəl sektorun inkişafı ilə bağlı bir sıra vacib hədəfləri özündə ehtiva etmişdir. Ümumiyyətlə, 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illəri əhatə edən regional inkişaf proqramları bu baxımdan xüsusi əhəmiyyət kəsb etməklə, regionlarda intibah mərhələsinin əsasını qoymuş, sahibkarlığın yüksəlişinə zəmin yaratmışdır.

Sahibkarlıq fəaliyyətinin inkişafının daha da sürətləndirilməsi məqsədilə Prezident İlham Əliyevin 2007-ci il oktyabrın 25-də imzaladığı "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" sərəncama əsasən, ölkədə biznes mühitinin əlverişliliyinin daha da artırılması, biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlərin görülməsi məqsədilə "bir pəncərə" prinsipinin tətbiqi nəzərdə tutulmuşdur.

Dövlət başçısının 19 may 2016-cı il tarixli "Dövlət əmlakının özəlləşdirilməsi prosesinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" və "Bəzi tikinti obyektlərinin istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərmanları, habelə 2016-cı il 21 may tarixli fərmanla təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları", 21 aprel 2016-cı il tarixli Azərbaycan Respublikasında "Sahibkarlar Günü"nün təsis edilməsi haqqında" sərəncamı, 1 iyun 2016-cı il tarixli "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" fərmanı ölkədə sahibkarlığın inkişafına ciddi təkan verən sənədlər kimi yüksək dəyərləndirilir.

Sahibkarların ixrac imkanlarının genişləndirilməsi tədiyyə balansının tənzimlənməsi, habelə xaricdən valyuta axınının təmini, idxaldan asılılığın maksimum dərəcədə azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir. 1 mart 2016-cı il tarixli "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" fərman da sahibkarlığa dəstək istiqamətində mühüm addım olmuş, sənəd əsasında ixrac məhsullarına ixrac təşviqinin maliyyələşdirilməsi və geriödəmə dəstəklərinin verilməsi mexanizmi yaradılmışdır.

Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" fərmanı isə keyfiyyətcə yeni mərhələdə iqtisadi inkişafı stimullaşdırmaq və böhranın mənfi təsirlərini aradan qaldırmaq məqsədi daşıyır. Fərmanla iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına dair strateji yol xəritələrinin təsdiq olunması həm də qlobal böhrandan çıxış yollarını özündə ehtiva etmişdir. Konkret olaraq "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" ölkəmizdə sahibkarlıq və biznes mühitinin yaxşılaşdırılması üçün yaxşı imkanlar açmışdır.

2018-ci ildə keçirilmiş prezident seçkilərindən sonra aparılan sistem xarakterli islahatlar – hökumətin tərkibinin yenilənməsi, insan amilinin sosial-iqtisadi islahatların əsas prioritetinə çevrilməsi, ən əsası, 2020-ci ildə ərazilərimizin erməni işğalından azad edilməsi, 2023-cü ilin sentyabrında suverenliyimizin tam bərpası sosial-iqtisadi və innovativ inkişaf sahəsində yeni vəzifələr müəyyənləşdirmişdir.

Azərbaycan Vətən Müharibəsində şanlı qələbə qazanmaqla, uzun illər ərzində qeyri-qanuni şəkildə istismar olunan ərazilərinin aqrar-sənaye, ekoloji, hidroloji potensialını bərpa etmək imkanı qazanmışdır. Eyni zamanda 2023-cü ilin sentyabr ayında keçirilmiş antiterror tədbirləri ilə münaqişəyə birdəfəlik son qoyulması, suverenliyimizin bərpası Azərbaycana xarici investisiya axınının daha da sürətləndirilməsi, xüsusən də azad edilmiş ərazilərdə biznesin təşkili üçün əlverişli imkanlar açmışdır.

Dövlət başçısı İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" bu istiqamətdə işlərin daha da sistemli, ardıcıl, əhatəli, konkret plan üzrə aparılmasına təminat yaradır. Azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin dirçəldilməsi, əlverişli biznes və sərmayə mühitinin formalaşdırılması, sahibkarlıq fəaliyyəti ilə məşğul olacaq şəxslərin maliyyə resurslarına çıxışının genişləndirilməsi, resursların maya dəyərinin azaldılması, əhalinin bank, sığorta və maliyyə xidmətləri ilə təmini və digər mühüm tədbirlər Dövlət Proqramının əhəmiyyətini daha da artırır. Proqrama əsasən, həmçinin, xarici ölkələrdəki ticarət nümayəndələri vasitəsilə regionun imkanları barədə marketinq tədbirləri, elektron platformalar vasitəsilə investisiyaların cəlbi, startapların və biznes inkubatorlarının yaradılmasının təşviqi məsələləri diqqət mərkəzində olacaqdır.

Görülən işlərin nəticəsi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanda səmərəli və iqtisadi işgüzar fəaliyyətin mühüm vəsilələrindən birinə çevrilməkdədir. Belə ki, reallaşdırılan tədbirlər qısa müdətdə yerli və xarici iş adamlarını Qarabağ və Şərqi Zəngəzurda mühüm biznes layihələrinin icrasına, əməli təkliflərin irəli sürülməsinə həvəsləndirir. İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) məlumatına əsasən, azad edilmiş ərazilərində biznes qurmaq istəyən sahibkarlardan 1500-dək müraciət daxil olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin son iki ildə dünya miqyaslı aparıcı şirkətlərin rəhbərləri ilə apardığı müzakirələr də ölkəmizə investisiya təşviqi baxımından son dərəcə əhəmiyyətlidir. Cənubi Qafqazda həyata keçirilən layihələrdən təcrid edərək özünü tamamilə təcrid edərək əhəmiyyətsiz dövlətə çevrilmiş Ermənistandan fərqli olaraq Azərbaycan dünyanın transmilli şirkətlərinin, işgüzar dairələrinin xüsusi maraq dairəsindədir.

Ümumiyyətlə, son 20 ildə formalaşmış əlverişli biznes investisiya mühiti, dünyada etibarlı tərəfdaş kimi tanınması, beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirməsi, mühüm tranzit imkanları Azərbaycanın investisiya cəlbediciliyini ilbəil artırır.

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə ölkədə formalaşdırılmış münbit biznes mühiti xarici şirkətləri Azərbaycana daha böyük həcmdə sərmayə yatırmağa meyilləndirir. Eyni zamanda, sahibkarlarının tədricən orta burjuaziya kimi formalaşması ölkənin təkcə iqtisadi deyil, demokratik-siyasi imicinin də möhkəmlənməsini, dayanıqlı iqtisadi inkişafı təmin edir.

***İsaxan VƏLİYEV,***
***Prezident yanında Dövlət İdarəçilik Akademiyası hüquq kafedrasının müdiri, professor***

# Leyla Əliyeva Dubay müzakirələrində



**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən COP-28 çərçivəsində dekabrın 4-də Ümumi Qadınlar Birliyinin sədri Şeyxa Fatimə Bint Mübarəkin himayəsi altında "Qadınlar tərəqqiyə liderlik edir: Su və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda panel iclas təşkil olunub.**



Birləşmiş Millətlər Təşkilatının (BMT), Ümumi Qadınlar Birliyinin və İsveçrə Qadınlar və Gücləndirmə Assosiasiyasının təşkilatçılığı ilə keçirilən iclasda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, Birləşmiş Ərəb Əmirliklərinin iqlim dəyişikliyi və ətraf mühit naziri Mariam Almheiri iştirak ediblər.

İclasda bildirilib ki, iştirakçılar BMT Baş Assambleyasının təhlükəsiz və təmiz içməli su hüququnu başlıca insan hüquqlarından biri kimi təsbit edən qətnaməsinə uyğun olaraq, su idarəçiliyi ilə bağlı aktual problemi həll etmək, onun icmalara və ekosistemlərə təsirlərini araşdırmağa yönəlmiş səyləri əlaqələndirməyə və gücləndirməyə çalışacaqlar.

Müzakirələrdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva deyib: "Biz görürük ki, iqlim dəyişikliklərinə görə Kür, Samur, Araz çaylarında suyun səviyyəsi aşağı düşür. Volqa çayında suyun səviyyəsi enir və bu, Xəzər dənizinə də təsir edir. Biz ötən 7-8 ildə Azərbaycanda quraqlığa şahid olmuşuq və bu da aqrar sahəyə təsirini göstərir. Hökumət ölkədə 10 su rezervuarı yaratmağı planlaşdırır və bununla problem həll olunacaq. Digər məsələ isə odur ki, təəssüf, biz ölkəmizin ərazisinin 20 faizinin 30 il ərzində işğal altında qaldığı dövrdə həmin torpaqlardakı su ehtiyatlarımızdan məhrum olmuşduq".

Çıxışlar zamanı su problemlərinin həlli ilə bağlı qarşılıqlı məlumatlılığın artırılmasının, davamlı su idarəçiliyi üçün inklüziv və məlumatlı həllərin təşviq edilməsinin, Dayanıqlı İnkişaf Məqsədlərinə və gender bərabərliyinə nail olmağın əhəmiyyəti xüsusi vurğulanıb. Panel iştirakçıları, həmçinin BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədinə nail olunmasını sürətləndirmək baxımından dünya miqyasında icmaların rifahına, sağlamlığına və bərabərliyinə müsbət təsir göstərə biləcək daha yaxşı su idarəçiliyi üçün qabaqcıl təcrübə və mümkün həll mexanizmlərini, eləcə də iqlim məsələlərini müzakirə ediblər.

Xəlifə Universitetinin professoru Mariam Rashed Al Shehihi bildirib: "Biz BƏƏ-də su ilə bağlı vəziyyət haqqında ən yeni məlumata sahib olmalıyıq. Bununla da problemləri daha yaxşı anlayıb su ehtiyatlarının daha səmərəli idarə edilməsinə nail ola bilərik. Biz anlamalıyıq ki, məsələn, BƏƏ-də hansı sahələrdə nə qədər su sərf edilir. Bununla da biz problemləri, indiki və gələcəkdə yarana biləcək vəziyyəti daha yaxşı başa düşə bilərik".

Panel iclasından sonra iştirakçılar COP28 çərçivəsində fəaliyyət göstərən Azərbaycan pavilyonunda olublar. Məlumat verilib ki, dekabrın 12-dək davam edəcək COP28 çərçivəsində Heydər Əliyev Fondu, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə yaradılan milli pavilyon "İqlim dayanıqlılığı üçün davamlı həlləri rəhbər tutaq" mövzusunu əhatə edir.

Pavilyonun konsepsiyası Azərbaycanın zəngin flora və faunası üzərində qurulub. İnteraktiv formatda qurulan pavilyonda ölkəmizin iqlim dəyişikliyi sahəsində siyasəti, atmosferə atılan istixana qazlarının azaldılması istiqamətində Azərbaycan hökumətinin tədbirləri, mitiqasiya və adaptasiya üzrə fəaliyyəti və digər layihələr barədə məlumat verilir. Bildirilib ki, ölkəmiz 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35 faiz azaldılması, 2050-ci ildə isə bu hədəfin 40 faizə çatdırılacağına dair öhdəliyi təsdiqləyib. Bu istiqamətdə aktiv fəaliyyət göstərmək Azərbaycan hökuməti üçün prioritet məsələdir.

Dekabrın 4-də, həmçinin Azərbaycan pavilyonunda IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondunun təşkilatçılığı ilə "İqlim dəyişməsi və ekosistemlərin bərpası" mövzusunda tədbir keçirilib.

Ümumdünya Təbiəti Mühafizə Fondunun Qafqaz ofisinin mühafizə meneceri Maka Bitsadze, layihə meneceri Yerney Strith, Fondun Azərbaycan nümayəndəliyinin rəhbəri Elşad Əskərov və IDEA təşkilatının nümayəndəsi Zərxanım Ağayeva regionda təbiətin mühafizəsi və bərpası layihələri barədə məlumat verib, Azərbaycanın bu layihələrdəki xüsusi rolunu vurğulayıblar. Bildirilib ki, ötən əsrin ortalarında nəsli kəsilməkdə olan ceyranların tarixi arealı bərpa olunmaqdadır və yeni ərazilərə 350 başa yaxın ceyran köçürülüb. O cümlədən işğaldan azad olunmuş ərazilərə 33 baş ceyran reintroduksiya edilib və bu proses davam etdiriləcək.

# Müdafiə naziri "EDEX 2023" sərgisində

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun Misir Ərəb Respublikasına səfəri davam edir.**

Müdafiə Nazirliyindən bildirilib ki, "EDEX 2023" beynəlxalq müdafiə sərgisində iştirak edən general-polkovnik Z.Həsənov İtaliya Respublikasının "Leonardo" şirkətinin, eləcə də Misirin "ARMADA" və "AOI" şirkətlərinin stendlərində təqdim edilən müasir silah və döyüş texnikası nümunələrini maraqla izləyib.

Sərgidə müxtəlif ölkələrin şirkətləri istehsal etdikləri hərbi təyinatlı məhsullar barədə ziyarətçilərə ətraflı məlumatlar veriblər.

***XQ***

# İran Hərbi Dəniz Qüvvələri heyəti Bakıda

**İran İslam Respublikası Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Şəhram İraninin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda səfərdədir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, səfər çərçivəsində komandanın Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşü, həmçinin Hərbi Dəniz Qüvvələrinin qərargahını və Heydər Əliyev adına Hərbi İnstitutu ziyarəti planlaşdırılır.

***XQ***

# Ordumuz Ermənistan tərəfə atəş açmayıb

**Azərbaycan Ordusunun atəşi nəticəsində Ermənistan hərbçisinin ölməsi xəbəri yalandır.**



MN-nin yaydığı məlumatda qeyd edilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən dekabrın 4-ü saat 14:35 radələrində Ermənistan silahlı qüvvələrinin Paşalı rayonunun Sultanbəy yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinə guya atəş açılması və nəticədə bir hərbi qulluqçunun ölməsi barədə bu ölkənin Müdafiə Nazirliyinin yaydığı məlumat həqiqəti əks etdirmir, tamamilə yalandır.

"Qarşı tərəfin təxribat xarakterli məlumatını qəti surətdə təkzib edirik", - məlumatda deyilir.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 430** **Bakı şəhəri, 2 dekabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarı ilə təsdiq edilmiş "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2151 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1511; 2022, № 12, maddə 1557; 2023, № 6, maddə 839) ilə təsdiq edilmiş "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"yə əlavə "ASAN müraciət" informasiya sisteminin fəaliyyətində iştirak edən qurumların Siyahısı"na aşağıdakı məzmunda 13-cü sətir əlavə edilsin:

| | |
|---|---|
| 13. | Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 431** **Bakı şəhəri, 2 dekabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 iyul tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydaları"nda dəyişiklik edilməsi haqqında**

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 861-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 iyun tarixli 729 nömrəli, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 may tarixli 539-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 iyun tarixli 729 nömrəli və "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" 2021-ci il 17 aprel tarixli 1315 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 5 iyul tarixli 1738 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2145 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 iyul tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunve-ricilik Toplusu, 2023, № 7, maddə 1068) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5.1-ci bənddə "yerləşdirilir" sözü "yerləşdirilməsi təmin edilir" sözləri ilə əvəz edilsin.

**2.** 7.5-ci bənddə "yerləşdirilməsi təmin olunur" sözləri "yerləşdirilməsini təmin edir" sözləri ilə əvəz edilsin.

**3.** Aşağıdakı məzmunda 8.4.3-1-ci yarımbənd əlavə edilsin:

"8.4.3-1. kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə tələblərə riayət olunmasını kritik informasiya infrastrukturu subyektindən tələb etmək;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 432** **Bakı şəhəri, 2 dekabr 2023-cü il**

**"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Fövqəladə vəziyyət rejiminin təmin olunmasında iştirak etmiş şəxslərin qeydiyyata alınması qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 2 sentyabr tarixli 120 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2004, № 9, maddə 738; 2016, № 9, maddə 1585; 2020, № 6, maddə 807) aşağıdakı dəyişikliklər edilsin:

1.1. preambulaya "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Fövqəladə vəziyyət rejiminin təmin olunmasında iştirak etmiş şəxslərin qeydiyyata alınması Qaydası"nın 1-ci hissəsində hər iki halda və 3-cü hissəsində "Fövqəladə vəziyyət haqqında" sözləri "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" sözləri ilə əvəz edilsin.

**2.** "Fövqəladə vəziyyətin tətbiqi üçün əsas olmuş hallar nəticəsində və ya həmin halların, yaxud onların nəticələrinin aradan qaldırılması üçün müvafiq tədbirlərin tətbiq edilməsi ilə əlaqədar zərər çəkmiş şəxslərə yaşayış yerlərinin verilməsi, dəymiş maddi zərərin ödənilməsi, işə düzəlmək üçün yardım və digər zəruri köməklik göstərilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 fevral tarixli 32 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 132; 2020, № 11, maddə 1415; 2021, № 3, maddə 274) aşağıdakı dəyişikliklər edilsin:

2.1. preambulaya "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Fövqəladə vəziyyətin tətbiqi üçün əsas olmuş hallar nəticəsində və ya həmin halların, yaxud onların nəticələrinin aradan qaldırılması üçün müvafiq tədbirlərin tətbiq edilməsi ilə əlaqədar zərər çəkmiş şəxslərə yaşayış yerlərinin verilməsi, dəymiş maddi zərərin ödənilməsi, işə düzəlmək üçün yardım və digər zəruri köməklik göstərilməsi Qaydası"nın 1.1-ci bəndinə "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**3.** "Fövqəladə vəziyyətin tətbiqinə səbəb olmuş şəraitin aradan qaldırılması ilə əlaqədar dövlət tərəfindən cəlb olunan ehtiyatların həcmi, aparılan işlərin maliyyələşdirilməsinin və maddi-texniki təminatının ölçüləri və qaydası, o cümlədən fövqəladə vəziyyətin tətbiqinə səbəb olmuş şərait nəticəsində zərər çəkmiş vətəndaşlara sosial ödənişlərin və kompensasiyaların, eləcə də fövqəladə vəziyyət şəraitində tətbiq olunan digər tədbirlərin görülməsi ilə əlaqədar sakinlərin müvəqqəti olaraq təhlükəsiz rayonlara köçürülməsi tədbirlərinin maliyyələşdirilməsi qaydası, əmlak və resursları sərf olunan təşkilatlara dəymiş zərərin ödənilməsi qaydası və məbləğinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 24 iyun tarixli 120 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 556; 2006, № 9, maddə 822; 2021, № 3, maddə 272; 2022, № 5, maddə 577) preambulasına "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**4.** "Qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsi və təmin edilməsi üçün səfərbər olunmuş şəxslərə əməyə görə ödəniş verilməsi Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 24 iyun tarixli 121 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 557; 2007, № 2, maddə 185; 2009, № 10, maddə 857) preambulasına "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 181; 2014, № 6, maddə 747; 2016, № 9, maddə 1585; 2019, № 1, maddə 163, № 7, maddə 1333; 2022, № 4, maddə 386) ilə təsdiq edilmiş "Fövqəladə vəziyyət şəraitində rabitədən istifadə üçün xüsusi Qaydalar"ın 1.1-ci bəndinə (birinci halda) "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 yanvar tarixli 8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 129, № 6, maddə 850) ilə təsdiq edilmiş "Fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi Qaydası"nın 1.3.1-ci, 2.3.4-cü yarımbəndlərinə, 3.3-cü bəndinə və "Qeyd" hissəsinin birinci cümləsinə "Fövqəladə vəziyyət" sözlərindən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan – ABŞ: yeni səfir və narahat Cənubi Qafqaz

(əvvəli 1-ci səhifədə)

Ümumən, Nümayəndələr Palatasındakı dinləmələr Ermənistanı müdafiə məntiqi üzərində qurulmuş və mövcud xüsusda Azadlığa Dəstək Aktına 1992-ci ildə edilmiş 907-ci düzəlişin qüvvəsinin dayandırılması ilə bağlı ABŞ Prezidentinə 2001-ci ildə verilmiş səlahiyyətin ləğvi məsələsi gündəmə gətirilmişdi. Bu isə Birləşmiş Ştatların Azərbaycana hər cür dövlət dəstəyinin aradan qaldırılması anlamı daşıyan məsələdir. Ən başlıca məqam isə budur ki, 907-ci düzəliş işğalla üzləşmiş ölkəmizin, işğalçı kimi təqdimatının təzahürünə çevrilmiş böyük ədalətsizlik idi. Deməli, Azərbaycanın Qarabağda bu il sentyabrın 19-da keçirdiyi lokal xarakterli antiterror tədbirləri sonrası dövlət suverenliyinə qovuşmasının fonunda, “907”-nin yenidən meydana çıxarılması, həm də rəy formalaşdırır ki, sanki Bakının davranışı Qarabağın işğalıdır. Əlbəttə, ölkəmiz belə yanaşmanı hiddətlə qarşılamalı idi və qarşıladı da.



*

Bəli, O`Braynın kovboysayağı qəbuledilməz tonu ölkəmizdə sərt narazılıq doğurmuşdu. Narazılıq Azərbaycanın Xarici İşlər Nazirliyinin yaydığı geniş bəyanatda da əksini tapmışdı. Rəsmi Bakı Vaşinqtonu ABŞ Beynəlxalq İnkişaf Agentliyi – USAİD və digər donor təşkilatlar vasitəsilə Azərbaycan əleyhinə fəaliyyət göstərməkdə ittiham etmişdi. Aşkar görünmüşdü ki, Bakı O`Braynın dili ilə ifadə olunmuş təzyiq qarşısında geri çəkilmək niyyətindən uzaqdır və Ağ evin Azərbaycan – Ermənistan münasibətlərindəki tənzimləyici missiyasından imtinada inadlı davranacaq. Bunun ardınca istər əvvəlcə ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerin açıqlaması, istərsə də sonra dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevə zəngi gərginliyin yumşaldılması baxımından diqqət çəksə də, demək olmaz ki, Bakı ilə Vaşinqton arasında O`Braynın yaratdığı buzlar ərimək üzrədir. Yəni, M.Libbinin səfir fəaliyyətinə başlaması, məhz belə bir çətin dövrə təsadüf etməkdədir.

*

Yeri gəlmişkən, ABŞ-ın Azərbaycandakı səfiri postu uzun müddət idi ki, boş qalmışdı. M.Libbi 2022-ci ilin mayında səfir vəzifəsinə namizəd kimi göstərilsə də, təsdiqlənməyən təxminən 175 namizəd arasında olmuşdu. Ancaq Ağ ev tərəfindən yenidən təqdim edilən 85 namizəddən biri də Libbi idi.

Onu da diqqətə çatdıraq ki, M.Libbi Vaşinqtondakı Milli Müharibə Kollecində Dövlət Departamenti fakültəsinin müşaviri vəzifəsində işləyib. ABŞ-ın Avropa İttifaqındakı səfirinin müavini postunu tutub. Bundan başqa o, Birləşmiş Ştatların Varşavadakı (Polşa), Nikosiyadakı (Kipr) və Bağdaddakı (İraq) diplomatik nümayəndəliklərində siyasi məsləhətçi kimi çalışıb, Dövlət Departamentinin Əməliyyatlar Mərkəzinin Böhranların İdarə Edilməsi üzrə direktor müavini, Mərkəzi Avropa Ofisinin direktor müavini, Cənubi Avropa Ofisinin direktoru qismində fəaliyyət göstərib. Yəni, demək olmaz ki, təcrübəsiz diplomatdır. Belədə, Libbinin hansı şərtlər altında işləyəcəyi, iki ölkə arasındakı gərginliyi aradan qaldırmaq üçün necə səy göstərəcəyi maraq doğurmaqdadır.

*

Bir məqamı da diqqətə çatdıraq ki, M.Libbinin Azərbaycana səfir kimi gəlişi əsnasında vurğulanmalı başlıca məqam yalnız Bakı – Vaşinqton münasibətlərində gərginliyin müşahidə olunması deyil. Eyni zamanda, ABŞ başda olmaqla kollektiv Qərbin Cənubi Qafqaz aktivliyinin artması da ön plandadır. Axı, C.O`Braynın haqqında söz açdığımız məlum çıxışı fonunda yaranmış soyuqluğun vacib qütbünü həmin aktivlik təşkil etməkdədir.

Aydın görünür ki, kollektiv Qərb, xüsusən də Fransa bölgəni, belə demək mümkünsə, Rusiyasızlaşdırmaq üçün erməni amilinə güc verməkdədir. O`Brayn, faktiki olaraq, Birləşmiş Ştatları Fransadan daha qətiyyətli ermənipərəst kimi təqdim etdi, ölkəni bu baxımdan, bir növ, məvhərindən çıxarmış oldu.

Əlbəttə, bu, yekun nəticədə erməni avantürizminə dəstəkdən başqa bir şey deyildi. Deməli, reallıqlara düzgün nəzər salmağa ehtiyac var. Yeri gəlmişkən, Qərb dünyasında mövcud ehtiyacı düşünənlərin olmadığını söyləmək mümkünsüzdür. Məsələn, İtaliyanın Xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmundo Cirielli, kifayət qədər, sərt formada bildirib ki, Fransa son hay (erməni) qalanadək Qafqazda yeni müharibə aparmaq istəyir. Cənab Cirielli Avropada erməni millətçiliyini, revanşizmini qızışdıranların olduğunu dilə gətirib. İtaliyalı diplomatın belə fikir bildirməsi, daha dəqiq desək, reallığı çılpaq şəkildə ifadə etməsi, kollektiv Qərbin bütün təmsilçilərini, o cümlədən ABŞ-ı düşündürməlidir. Onlar düşünməlidirlər ki, ermənipərəstlik Cənubi Qafqaz müstəvisində heç bir perspektivi olmayan gedişdir. Bu yolla nə Rusiyanı bölgədən sıxışdırmaq mümkündür, nə də bir dövlət kimi Ermənistanın varlığını qorumaq.

Qeyd edək ki, C.O`Brayn məlum çıxışında ABŞ-ın Azərbaycanın Qarabağdakı fəaliyyəti ilə bağlı “hərtərəfli və şəffaf” hesabatın hazırlanması prosesinə başladığını da vurğulamışdı. O, bu işə müstəqil mütəxəssislərin və Dövlət Departamentinin nümayəndələrinin cəlb olunduğunu, beynəlxalq təşkilatların məlumatlarından istifadə ediləcəyini demişdi. M.Libbinin mövcud müstəvidə də prinsipial və qətiyyətli mövqe tutması önəmlidir. Yəni, Azərbaycan beynəlxalq miqyaslı şər, böhtan və iftira ilə üzləşməməlidir.

M.Libbinin mövqeyinin bir məsələdə də həllediciliyi nəzərə alınmalıdır. Məlumdur ki, Ermənistanın rəhbərliyi, o cümlədən, dünyanın ermənipərəst dairələri iddia edirlər ki, guya, Azərbaycan Rusiya ilə birləşərək, anti-erməni mövqe tutur və bu, Birləşmiş Ştatların Cənubi Qafqaz siyasətinə ziddir. Aşkar görünür ki, İrəvan və əlaltıları Vaşinqtonun Bakıya münasibətini tündləşdirmək yolu tuturlar. Elə fon yaradırlar ki, sanki Azərbaycan Qərbin Cənubi Qafqaza gəlmək istəklərinə qarşı çıxmaq yolu tutur. Bu isə Ermənistanın Azərbaycanla sülhdən uzaqlaşmaq, reallıqları təhrif etmək niyyəti güdən siyasi manipulyasiyasıdır.

Libbi bu sayaq manipulyasiyaları düzgün qiymətləndirməli, obyektiv davranmalıdır. Nəzərə almalıdır ki, Bakı yalnız və yalnız özünün maraqlarını əsas tutur, İrəvandan fərqli olaraq, müstəqil xarici siyasət yürüdür. Libbi Cənubi Qafqazda Qərb kapitalının Ermənistanda yox, Azərbaycanda cəmləşdiyini, ən başlıcası isə bu cəmləşmənin 1993-cü ildən vüsət aldığını yaxşı-yaxşı götür-qoy etməlidir. Ümidvarıq ki, yeni səfirin diplomatik təcrübəsi obyektiv mövqe tutmasına imkan yaradacaq.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Fransa Senatı Ermənistanı niyə müharibəyə çağırır?

**Fransanın Ermənistanı silahlandırması artıq günümüzün aşkar reallığı kimi özünü göstərməkdədir. Fransa Senatı məsələni müzakirəyə çıxarıb. Paris yüksək effektivliyini nəzərə alaraq SEZAR artilleriya sistemlərinin Ermənistana tədarükü məsələsinin mümkün qədər tez öyrənilməsini tövsiyə edib.**



Mövzu ilə bağlı Fransa Senatının məlumatına diqqət yetirəndə, elə bilirsən ki, xəbəri yayan ali qanunverici orqan yox, hansısa hərbi strukturdur. Diqqət yetirək, məlumatda bildirilir ki, Ermənistana “MISTRAL 3” zenit-raket komplekslərinin tədarükü ilə bağlı müzakirələr gedir. Senat, həmçinin qeyd edib ki, Fransanın “Arquus” şirkətinin istehsalı olan “Bastion” tipli 24 zirehli maşın artıq Ermənistandadır və onlara hazırda istehsal olunan eyni tipli daha 26 maşın qoşulmalıdır.

Qeyd edək ki, Ermənistanla Fransa arasında silahların tədarükü ilə bağlı razılaşma bu ilin oktyabrında Parisdə ölkələrin müdafiə nazirləri Suren Papikyan və Sebastyan Lekornyu arasında keçirilmiş görüşdə əldə olunub. Fransa Senatı bildirir: “Fransa hakimiyyəti Ermənistana müdafiə silahlarının verilməsi təşəbbüsü ilə çıxış edib. Müdafiə və hücum silahları arasındakı bu fərq, əslində, Ukraynadakı müharibənin göstərdiyi kimi, o qədər də praktiki deyil. Gəlin, eyni səhvləri təkrar etməyək və əvvəldən lazım olan avadanlıqların çatdırılmasını gecikdirməyək. Ona görə də biz Ermənistan hakimiyyətinin bütün müraciətlərinə, xüsusən də onların artilleriyaya ehtiyacı ilə bağlı müraciətlərinə dərhal cavab verməliyik”.



Göründüyü kimi, Fransa Senatı Ermənistana silah verilməsi məsələsinə həssas yanaşmağa çağırır və faktiki olaraq, əvvəllər bu məsələdə səhvlərə yol verildiyini etiraf edir. Senatın məlumatı rəsmi İrəvanın Parisə silah-sursat almaq üçün yeni müraciətinin mövcudluğundan da xəbər verməkdədir. “Əlverişli imkanın mövcud olduğu bir vaxtda bəzi dövlətlərin bölgədə vəziyyəti yenidən gərginləşdirmək məqsədilə Ermənistanı silahlandırması yolverilməzdir”, – deyən Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyev bir müddət əvvəl səsləndirdiyi bu fikirlə məsələyə ATƏT-in Parlament Assambleyasının prezidenti Pia Kaumanın diqqətini çəkmişdi.

Bəli, Ermənistanın sürətli silahlandırılması Cənubi Qafqaz regionunda sülhün əldə edilməsinə mənfi təsir göstərməkdədir və bölgədə yeni müharibə riskini aktuallaşdırır. Azərbaycan rəsmiləri dəfələrlə bununla bağlı narazılıqlarını dilə gətiriblər. Xüsusən də Bakı və İrəvan arasında sülhün əldə edilməsinin müzakirə olunduğu hazırkı dövrdə Fransada səslənən bəyanat və fikirlər onu göstərməkdədir ki, bu ölkə regionda barış mühitinin qərarlaşmasını qətiyyən istəmir. Ümumən, kollektiv Qərb Azərbaycanın və Ermənistanın sülhə gəlməsindən danışır, həmin Qərbin təmsilçisi olan Paris tamam başqa havalardadır. Burada Fransanın özbaşına davrandığını, yoxsa təmsil olunduğu komandanın maraqlarından çıxış etdiyini müəyyənləşdirmək çətinləşir, şübhələr yaranır. Axı, ABŞ Konqresində bu günlərdə keçirilmiş dinləmələrdə də Ermənistanın etibarlı müdafiəsinin təşkili məsələləri ətrafında fikir mübadiləsi aparılmışdı. Hərçənd, mövcud istiqamətdə Birləşmiş Ştatların Fransa qədər “irəli getdiyini” söyləmək mümkünsüzdür.

*

Həqiqətən də, Fransa Ermənistanı silahlandırmaq, guya, ölkənin müdafiə qabiliyyətini yüksəltmək naminə diskussiyalarda daha aktivdir və niyyətini əməli iş müstəvisinə gətirməkdədir. Bir qədər əvvəl müdafiə nazirləri Suren Papikyan və Sebastyan Lekornyu arasında keçirilən görüşdən söz açdıq. Oktyabrın 23-də Parisdəki həmin görüşdə tərəflərin imzaladıqları hərbi əməkdaşlıq sazişinə görə, Ermənistan Fransanın “Thales” müdafiə qrupundan üç “Ground Master 200” (GM200) radar sistemi, eləcə də digər növ hərbi texnika və sursat alacaq. Yeri gəlmişkən, GM200 radar sistemi PUA, helikopter, qanadlı raketlər kimi təhlükələri aşkar etmək və izləmək qabiliyyətinə malikdir. Parisdə Ermənistanın müdafiə naziri S.Papikyanla keçirdiyi birgə mətbuat konfransında S.Lekornyu bildirmişdi ki, hazırda Ukraynada istifadə edilən bu radar sistemi “müstəsna aşkarlama imkanları” ilə tanınır. “Erməni xalqının tarixinin çətin anlarında olduğu kimi, bu gün də Ermənistan ətrafındakı mürəkkəb hərbi-siyasi vəziyyətdə Fransa və fransız xalqı bizim tərəfimizdədir. Bu təqdirəlayiqdir və buna görə mən bir daha minnətdaram”, – deyən S.Papikyanın başqa nələrdən danışdığı bir o qədər önəmli deyil.

Onu da deyək ki, Ermənistan müxtəlif illərdə də Fransa ilə hərbi əməkdaşlıq sazişləri imzalayıb. Ancaq haqqında söz açdığımız saziş İrəvanın bir Qərb ölkəsi ilə imzaladığı ilk böyükmiqyaslı müqavilədir. Ona görə də rəsmi Bakı məsələni regionda destruktiv fəaliyyət kimi qiymətləndirməkdə tam haqlıdır. Həm də ona görə haqlıdır ki, Lekornyu özünün sosial media hesabından verdiyi açıqlamada ölkəsinin Ermənistanın silahlandırılması işini, bir növ, ilahiləşdirmiş, prosesə müqəddəslik siması qazandırmağa çalışmışdı. Məsələn, “Ermənistan özünü müdafiə etməli və xalqını qoruya bilməlidir” kimi fikirlər bölüşən fransız nazir əlavə etmişdi ki, Fransa Ermənistanın qurudan müdafiə qüvvələrinə təlim keçəcək, ordunun islahatına və modernləşdirilməsinə dəstək verəcək, fransalı bir zabit Ermənistanın Müdafiə Nazirliyinə hərbi məsləhətçi kimi göndəriləcək.

Əlbəttə, bütün bunlardan, həmçinin, Fransanın və Ermənistanın müdafiə nazirlərinin “Mistral” qısa mənzilli hava hücumundan müdafiə raketlərinin alınması ilə bağlı niyyət memorandumu imzalamalarından da sonra S.Lekornyunun silahların müdafiə xarakteri daşıdığını qeyd etməsi, “bu, öz təbiətinə görə yalnız Ermənistan ərazisinə təcavüz olduqda və əksər hallarda mülki əhali hücum altında olanda müdafiəni həyata keçirən silah sistemidir” deməsi tam mənasızdır. Aydındır ki, məqsəd yalnız müdafiə deyil, həm də hücumdur, daha doğrusu, müharibə aparmaqdır. Diqqət yetirək, “Ground Master 200” müasir radar sistemi 250 km uzaqlığında hava hədəflərini aşkara çıxarmaq funksiyasına malikdir. Nəzərə alaq ki, istər 44 günlük müharibə zamanı, istərsə də ondan sonrakı eskalasiyalarda Azərbaycan Ermənistanın hava hücumundan müdafiə qoşunlarının texniki vasitələrinin çoxunu sıradan çıxarıb.

Fransanın Ermənistana verdiyi silah-sursat və hərbi avadanlıqların, o cümlədən, belə demək mümkünsə, Lekornyu – Papikyan paktında nəzərdə tutulanların miqyası Parisin İrəvanı gerçək savaşa hazırladığı barədə fikir yürütməyə imkan verir. Fransız mediası məsələyə bir qədər fərqli aspektdən yanaşaraq, bəlkə özü də fərqinə varmadan bu rəyi formalaşdırır. Məsələn, “Le Monde” qəzetini götürək. Qəzet Fransa – Ermənistan hərbi sazişinin imzalanmasından sonra yayımladığı məqalədə bu müqaviləyə radar və zenit-raket komplekslərinin satışı ilə yanaşı, Fransanın Ermənistana dəstəyi üçün təlimlərin də daxil olduğu xatırladılıb və ikincinin bu xərcləri necə ödəyəcəyi məsələsini gündəmə gətirib. “Le Monde”nin yazdığına görə, məsələ Ukraynaya hərbi yardımda olduğu kimi, yalnız silah tədarükündə deyil, məbləği bir neçə yüz milyon avroya çata biləcək müqavilələrdədir: “Amma İrəvanın onların pulunu necə ödəyəcəyi hələ məlum deyil”.

Əlbəttə, Ermənistanın heç bir vəsaiti yoxdur ki, Fransa ilə hərbi əməkdaşlıq çərçivəsində ondan aldığı silahların dəyərini ödəyə bilsin. Bu, bir daha onu göstərir ki, Ermənistanın silahlandırılması məsələsi siyasi məzmun daşımaqdadır və qlobal məqsədlərə köklənib. Görünür, Qərb dünyası Fransanın sabiq prezidenti Fransua Ollandın iki ay əvvəl söylədiklərindən nəticə çıxarıb. Olland vurğulamışdı ki, Ermənistanı tərk etmək Fransa üçün rəzalət, Avropa üçün isə utanc hesab edilər. Mövcud kontekstdən yanaşsaq, Fransa Senatının çağırışı utancdan və rəzalətdən xilas olaraq qiymətləndirilə bilər. Görünür, bu xilas İrəvanı yeni müharibəyə hazırlaşdırmaq “vəzifəsini” müəyyənləşdirməkdədir. Əlbəttə, Senat Ermənistanı nəinki utanca və rəzalətə, eyni zamanda, böyük fəlakətə sürüklədiyinin fərqinə varmamaqda sərbəstdir.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizində önəmli qovşaqdır

**Beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişdiyi məkanda yerləşən Azərbaycan tranzit yükdaşımalarının həyata keçirilməsində mühüm rol oynayır. Bu da ölkəmizin mühüm nəqliyyat habına çevrilməsi ilə yanaşı, tranzit sahəsində əməkdaşlıq üçün geniş imkanlar yaradır. Son illər Cənub-Şərqi Asiya ölkələri ilə Rusiya və Avropanı nəqliyyat baxımından birləşdirən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin funksionallığının artması müşahidə olunur. Bu baxımdan Azərbaycanın qonşu İranla tranzit sahəsində əməkdaşlığı da sözügedən dəhlizin fəaliyyətinin canlandırılmasına mühüm töhfələr verir.**




"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yükdaşımaların həcmi 10 milyon tonu keçib. Hazırda bu istiqamətdə yükdaşımaları artırmaq məqsədilə bir sıra işlər həyata keçirilir". Bu sözləri İranın nəqliyyat nazirinin müavini Şəhriyar Əfəndizadə deyib. Tehranda jurnalistlərin suallarını cavablandıran Ş.Əfəndizadə bildirib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas seqmenti olan Qəzvin-Rəşt-Astara(İran)–Astara(Azərbaycan) dəmir yolunun Rəşt-Astara hissəsi başa çatdıqdan sonra tranzit yükdaşımaların həcmi 15 milyon tona çatacaq.

2022-ci ilin sentyabr ayında Bakıda Azərbaycan, İran və Rusiyanın rəsmi şəxsləri arasında keçirilən görüşdə bu məsələnin müzakirə olunduğunu xatırladan nazir müavini qeyd edib ki, həmin tədbir zamanı tranzit yükdaşımaların həcminin artırılması üçün qarşılıqlı əməkdaşlığın genişləndirilməsi qərara alınıb. Onun sözlərinə görə, Rəşt-Astara dəmir yolunun tikintisinin başa çatdırılması ilə yüklərin tez, asan və keyfiyyətli daşınması təmin olunacaq. Bu da daşımaların həcminin artmasına səbəb olacaq.

Xatırladaq ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən Rəşt-Astara yolu Qəzvin-Rəşt-Astara (İran)–Astara (Azərbaycan) dəmir yolunun davamıdır. Asiya ilə Avropanı nəqliyyat baxımından birləşdirəcək bu dəhlizin formalaşması nəticəsində İran, Azərbaycan və Rusiyanın tranzit yükdaşıma imkanları artacaq. Artıq Qəzvin-Rəşt-Astara (İran)–Astara (Azərbaycan) dəmir yolunun Qəzvin-Rəşt hissəsi istismara verilib. Yolun Rəşt-Astara hissəsinin çəkilişi isə sürətlə davam etdirilir. Tikinti işləri başa çatdıqdan sonra İran və Azərbaycan üzərindən tranzit yükdaşımaların həcmində yüksək artım müşahidə ediləcək.

Gələcəkdə Cənub Şərqi Asiya ölkələrindən daşınan yüklər Hindistanın Mumbai limanına, buradan da İranın Çabahar və Bəndər-Abbas limanlarına daxil olacaq. Bu limanlardan isə yüklər qatarla Qəzvin-Rəşt-Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu ilə ölkəmizin ərazisindən keçərək Rusiya və Avropaya daşınacaq. Məlum olduğu kimi, İran və Azərbaycan bu layihədə tranzit ölkələr kimi çıxış edirlər. Yeri gəlmişkən, İranın Nəqliyyat İnfrastrukturunun Tikintisi və İnkişafı Dövlət Şirkətinin icraçı direktoru Xeyrulla Xademi ötən ay verdiyi açıqlamada bildirmişdi ki, Rəşt-Astara dəmir yolunun tikintisinin davam etdirilməsi istiqamətində Rusiya ilə aparılan danışıqlarda texniki məsələlərin 70 faizi razılaşdırılıb. Onun sözlərinə görə, yolun tikintisinin maliyyələşmə qrafiki, yükdaşıma imkanının artırılması, stansiyaların inşası, istismar qaydaları haqqında Rusiya ilə razılıq əldə olunaraq sənəd imzalanıb.

Bu arada, İranın Gömrük Xidməti məlumat yayıb ki, cari ilin martından ötən 8 ayda bu ölkədən tranzit yükdaşımaların həcmi ötən ilin müvafiq dövrünə nisbətən 20 faiz artıb. Məlumatda bildirilib ki, həsabat dövrü ərzində İranın sərhədlərindən 10,92 milyon ton tranzit yük daşınıb. Yüklərin 14,5 faizi Astara (İran) – Astara (Azərbaycan) gömrük-keçid məntəqəsindən keçərək mənzil başına çatdırılıb.

Qeyd edək ki, "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin təməli 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası saziş əsasında qoyulub. Dəhlizin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır. Ötən müddətdə 13 ölkə sözügedən sənədi ratifikasiya edib. Yeri gəlmişkən, hazırda mövcud marşrutla Hindistandan Rusiyaya yüklərin çatdırılması üçün 6 həftədən artıq vaxt tələb olunur. Beynəlxalq nəqliyyat dəhlizinin tam fəaliyyətə başlaması isə bu müddətin iki dəfə azalmasına səbəb olacaq.

"Şimal-Cənub" Nəqliyyat Dəhlizinin formalaşmasında tranzit ölkə kimi mühüm rol oynayan Azərbaycan bu sazişə 2005-ci ildə qoşulub. Avrasiya materikinin şimal və cənub hissələri arasında mühüm nəqliyyat-logistika rolunu oynayan dəhlizin Azərbaycan ərazisindən keçən hissəsində ötən müddətdə böyük infrastruktur layihələri həyata keçirilib. Bu baxımdan Bakı Dəniz Ticarəti Limanı xüsusi əhəmiyyət daşıyır. Son illər limanın yükaşırma qabiliyyətinin artırılması ilə bağlı görülən işlər onun beynəlxalq statusunu xeyli gücləndirir. Bundan əlavə, Ələt-Astara avtomobil yolunun yenidən qurulması, İran Astarası ilə Azərbaycan Astarası arasında yeni dəmir yolu körpüsünün istifadəyə verilməsi ölkəmizin tranzit rolunun xeyli artmasına səbəb olub.

Bütövlükdə isə, Prezident İlham Əliyevin "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" 7 dekabr 2015-ci il tarixli Sərəncamına uyğun olaraq Astara (Azərbaycan)–Astara (İran) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər 8,3 kilometr yeni yol tikilib, Astaraçay üzərində dəmiryol körpüsü inşa olunub, buradan İran İslam Respublikası ərazisində yaradılmış yük terminalına qədər 1,4 kilometr yol çəkilib. Eyni zamanda, Astaraçay üzərində tikintisi başa çatdırılmış yeni avtomobil körpüsü də yaxın günlərdə hər iki dövlət rəsmilərinin iştirakı ilə istismara veriləcək. Bütün bunlarla yanaşı, hazırda "Azərbaycan Dövlət Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən İranın Astara şəhərində yük terminalının tikintisi sürətlə davam etdirilir.

Qeyd edək ki, hazırda İrana, əsasən, taxıl məhsulları və meşə materialları, əksistiqamətdən neft və neft məhsulları, mineral gübrələr, sement, kimyəvi məhsullar və s. daşınır. Dəhlizin tam gücü ilə fəaliyyətə başlaması gələcəkdə Azərbaycanın da tranzit gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Ekspertlərin fikrincə, ölkəmiz tranzit yüklərin daşınmasından ildə 2,5-3 milyard dollar qazanacaq. Yeri gəlmişkən, İranın Prezident Administrasiyası rəhbərinin müavini Məhəmməd Cəmşidi İSNA informasiya agentliyinə verdiyi müsahibəsində qeyd edib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin gətirəcəyi gəlir neft satışından əldə olunan gəlirə bərabər olacaq. Onun sözlərinə görə, dəhlizin illik gəliri 20 milyard dollara çatacaq.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

## "Prezident Heydər Əliyev" tankeri təmirdən sonra Xəzərə qayıtdı

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasına məxsus "Prezident Heydər Əliyev" tankeri təmir olunub.**



ASCO-dan verilən məlumata görə, "Zığ" Gəmi təmiri və tikintisi zavodunda aparılan təmir zamanı tankerin baş və köməkçi mühərrikləri, avar valı sazlanıb, bəzi elektrik avadanlıqları yeniləri ilə əvəzlənib, köhnələri təmir olunub. Eyni zamanda, göyərtədə və maşın şöbəsində boruqurașdırma işləri yerinə yetirilib. Gəmidə rabitə və elektronaviqasiya sahəsinə aid 1 ədəd müasir peyk rabitə terminalı və eyni sayda sürətölçən LAQ quraşdırılıb, komanda-yayım qurğusu əsaslı təmir olunub. Bununla yanaşı, gəmi heyətinə məxsus yaşayış otaqları da yenilənib.

Təmirçilər, həmçinin gəminin sualtı və suüstü hissəsinin, baş göyərtə və üst qurumun, lövbər zəncirlərinin obraziv qumla təmizlənərək üç qat rənglənməsini də həyata keçiriblər. Təmirdən sonra tanker yenidən istismara qaytarılıb.

Qeyd edək ki, uzunluğu 149, 9, eni 17,3 metr olan "Prezident Heydər Əliyev" tankerinin yükgötürmə qabiliyyəti 13 min tondur.

## Milli neft şirkətimiz Özbəkistanda

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Özbəkistanın Qaşqadərya vilayətində kimyəvi məhsul və neft-qaz avadanlığının istehsalını həyata keçirən müəssisə inşa edəcək.**

SOCAR

Bu məsələ "Uzbekneftgaz" Səhmdar Cəmiyyətinin nümayəndələrinin SOCAR-ın"Neftqazelmitədqiqatlayihə" İnstitutuna işgüzar səfəri zamanı müzakirə olunub. "Uzbekneftgaz"ın nümayəndələri səfər çərçivəsində qazma və tamponaj məhlulları üzrə beynəlxalq sertifikat əsasında akkreditasiya olunmuş sınaq laboratoriyalarının fəaliyyəti ilə də tanış olublar.

Özbəkistan şirkətinin yadığı məlumata əsasən, "Neftqazelmitədqiqatlayihə" İnstitutu ilə birgə layihə çərçivəsində SOCAR Özbəkistanda da bənzər müəssisə inşa etməyi planlaşdırır. Bundan başqa, şirkətlər, həmçinin, quyuların əsaslı təmiri üçün avadanlığın hazırlanması, eləcə də yataqların işlənməsi və qazma zamanı geniş istifadə olunan qazma və tamponaj məhlulları üçün komponentlərin anbara yığılması və bölüşdürülməsi üzrə xidmətlərin göstərilməsi məsələlərini nəzərdən keçirəcək. Qeyd olunub ki, danışıqların yekunlarına əsasən, elmi infrastruktur yaradılması üzrə layihənin icrasının növbəti mərhələləri ilə əlaqədar məsələlər razılaşdırılacaq.

## Ölkəmizdə metan tullantıları sürətlə azaldılır

### *"Yaşıl keçid" bu prosesi 2035-ci ilədək başa çatdıracaq*

**İqtisadiyyat naziri Mikayıl Cabbarov BƏƏ-nin Dubay şəhərində keçirilən BMT-nin iqlim dəyişikliyi üzrə sessiyasında jurnalistlərə açıqlaması zamanı bildirib ki, COP28 çərçivəsində SOCAR irəli sürülən təşəbbüslərin birinə qoşulub. Həmin öhdəliyə əsaslanılaraq şirkət 2035-ci ilə qədər metan tullantılarının sıfıra endirilməsi layihəsi ilə bağlı müvafiq sənədlər imzalayıb.**



Mikayıl Cabbarovun sözlərinə görə, həyata reallaşdırılan tədbirlər arasında ölkə iqtisadiyyatında "yaşıl keçid"in təmin edilməsinin dayanıqlığını "yaşıl enerji" mənbələrin bir tərəfdən artırılması, digər tərəfdən iqtisadi səmərəliliyin təmin edilməsi və bunun üçün özəl investisiyaların həmin sahələrə yatırılması üçün şəraitin yaradılması kimi məsələlər əks olunub.

İqtisadiyyat naziri əlavə edib ki, COP28 çərçivəsində keçirilən görüşdə istər Azərbaycanda, istərsə də Orta Asiya ölkələrində istehsal olunan enerji, bərpaolunan enerji mənbələrinin həm ixracı və mübadiləsi imkanları, eyni zamanda, Xəzər dənizi sahillərini birləşdirən enerji kabelinin tikilməsi kimi layihələr də müzakirə edilib.

*XQ*

**Enerji ilə regional və qlobal əməkdaşlıq mühitinin yaradılması Prezident İlham Əliyevin enerji siyasətində əsas prioritetlərdən biridir. Hazırda Avropa İttifaqı ilə yüksək səviyyəli enerji dialoqu həyata keçirilir. Həmçinin Azərbaycan 7 ildir ki, neft bazarının tənzimləməsinin çevik və səmərəli əməkdaşlıq formatı olan "OPEC+"da təmsil olunur. Dövlət başçısının irəli sürdüyü Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) və qeyri-OPEC ölkələrinin bu əməkdaşlıq modeli vasitəsilə respublikamız neft bazarında tarazlığa, qiymət sabitliyinə və neft sənayesinin inkişafına davamlı töhfələr verir.**

# Ölkəmiz "OPEC+" əməkdaşlıq modelinin nüfuzlu tərəfdaşıdır




Qeyd edək ki, energetika naziri Pərviz Şahbazov ötən ay OPEC-ə üzv və qeyri-üzv ölkələri nazirlərinin onlayn formatda keçirilən 36-cı iclasında iştirak edib. Toplantıda Braziliyanın 2024-cü ilin yanvarından etibarən "OPEC+"a qoşulması razılaşdırılıb. Anqola, Konqo və Nigeriyanın gələn il üçün hasilat kvotaları məsələsinə də baxılıb. Bu kvotalar 2024-cü ildə gündəlik neft hasilatının Anqolada 1 milyon 110 min barel, Konqoda 277 min barel, Nigeriyada isə 1 milyon 500 min barel həcmində olmasını nəzərdə tutulub.

Müzakirələr zamanı P.Şahbazov yüksək həmrəylik və rasional tənzimləmə tədbirləri sayəsində 2023-cü ildə qlobal neft bazarındakı vəziyyətin qənaətbəxş olduğunu vurğulayıb. Nazir OPEC və qeyri-OPEC ölkələrinin bu birliyinin, konsensus əsasında fəaliyyətinin növbəti il üçün də vacibliyini vurğulayaraq, neft bazarında davamlı sabitlik naminə qərarların qəbulunda yekdilliyi qoruyub saxlamağı tövsiyə edib. Yeri gəlmişkən, Azərbaycanın gələn il üçün hasilat kvotasının gündəlik 551 min barel təşkil edəcəyi qərara alınıb.

"OPEC+" alyansına daxil olan bir neçə ölkə ötən həftənin cümə axşamı 2024-cü ilin birinci rübündə neft hasilatını könüllü olaraq sutkada 2,2 milyon barel həcmində azaltmağa razılaşdığını elan edib. "Bloomberg" agentliyinin məlumatına əsasən, Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) və onun "OPEC+" kimi tanınan müttəfiqləri tərəfindən vurğulanan əlavə könüllü ixtisarlar Səudiyyə Ərəbistanı üzrə sutkada 1 milyon barel, İraq üzrə 223 min barel, Birləşmiş Ərəb Əmirlikləri üzrə 163 min barel, Küveyt üzrə 135 min barel, Qazaxıstan üzrə 82 min barel, Əlcəzair üzrə 51 min barel və Oman üzrə 42 min barel həcmdə olacağı müəyyənləşdirilib.

Rusiya 2023-cü ilin may və iyun aylarının orta ixrac səviyyəsindən eyni dövr üçün ixracatı sutkada 500 min barel azaldacaq. Bunun 300 min bareli xam neft və 200 min bareli isə emal olunmuş neft məhsullarından ibarət olacaq.

Könüllü ixtisarlar gələn ilin yanvarından mart ayına kimi qüvvədə qalacaq və bazar sabitliyini dəstəkləmək üçün bazar şərtlərinə uyğun şəkildə tədricən geri istiqamətdə artırılacaq. Bu ixtisarlar 2024-cü ilin sonuna qədər davam edəcək və gündəlik 3,6 milyon barel hasilatın azaldılmasına əlavə olacaq.

Kollektiv hasilatın azaldılmasına 2022-ci ilin oktyabrında həyata keçirilən gündəlik 2 milyon barel və may ayından bəri davam edən 1,6 milyon barel hasilat daxildir.

Onu da qeyd edək ki, bir neçə gün bundan əvvəl OPEC-in Baş katibi Haysam Əl-Qaysın beynəlxalq mediada cari ildə qlobal neft bazarında yaranan vəziyyət və gələn il üçün perspektivlər barədə məlumatı yayılıb.

OPEC-in rəsmi saytında bununla bağlı deyilir ki, Neft İxrac edən Ölkələr Təşkilatı Katibliyinin tədqiqat qrupu müxtəlif enerji siyasətində dəyişiklikləri, enerji keçidlərinin sürət və xarakterini yenidən qiymətləndirmək, eləcə də iqtisadi mənzərədəki inkişafı öz üzərinə götürmək, habelə neftə tələbatın uzunmüddətli perspektivini yenidən nəzərdən keçirmək qərarına gəlib. Həmçinin 2023-cü ildə tərtib edilən Dünya Neft Proqnozunda neftə tələbatın 2045-ci ilə qədər gündəlik 116 milyon barelə çatacağı vurğulanıb. Bunun isə 2022-ci ildəki proqnozla müqayisədə 6 milyon barel çox olduğu və daha yüksək səviyyə üçün potensialın mövcudluğu diqqətə çatdırılıb.

OPEC-in rəhbərinin sözlərinə görə, belə bir proqnozlaşdırma daha çox İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ölkələri ilə bağlıdır. Bu, 2022-ci illə müqayisədə gündəlik 2,6 milyon barel artım deməkdir. Bunun əksinə olaraq, əvvəlki proqnozlarda 2045-ci ildə OECD-nin neft tələbində cüzi eniş yönlü düzəlişlər olması da xatırlanır.

Baş katib diqqətə çatdırıb ki, OECD-nin neftə tələbatının artması əhəmiyyətli enerji və iqtisadi inkişafların fonunda baş verir. Çünki əhali bir çox ilkin xalis sıfır emissiya siyasəti və hədəflərinin onlar üçün nə demək olduğunu görür və siyasətçilər enerji keçid yollarına yanaşmaları yenidən qiymətləndirir. Bu, Aİ-nin bir çox ölkələrində, məsələn, Böyük Britaniyada, ABŞ-də, Avstraliyada hökumətlərin enerji təhlükəsizliyinə və sosial-iqtisadi inkişafa daha çox üstünlük verməsi ilə bağlıdır. Məsələn, "Aİ EURO 7" emissiya standartları əhəmiyyətli dərəcədə yumşaldılır. Bu, eyni zamanda, həmin ölkələrdə və regionlarda neft tələbinə birbaşa təsir edir. Bundan əlavə, artan xərclər və tədarük zəncirindəki məhdudiyyətlər səbəbindən də bəzi bərpaolunan layihələr təxirə salınır və ya hətta dayandırılır.

Neft tələbinin ötən il ilə müqayisədə gündəlik 3,4 milyon barel artdığı OECD üzvü olmayan ölkələrdə vəziyyətin bir qədər fərqli olduğunu qeyd edən OPEC-in Baş katibi Haysam Əl-Qays bildirir ki, sürətli sənayeləşmə, orta sinfin güclənməsi, nəqliyyat xidmətlərində genişlənmə, enerjiyə çıxışın yaxşılaşması amilləri hesabına sürətli iqtisadi artım neftə tələbatı artırır. Nəticədə, sənaye, neft-kimya, aviasiya və yaşayış sahələri də daxil olmaqla, neft istehlakı sektorlarının əksəriyyəti əvvəllər gözləniləndən daha sürətlə genişlənir.

Baş katib, həmçinin vurğulayıb ki, dünya əhalisinin sayı artır və gələcək onilliklərdə iqtisadiyyatların sürətlə böyüyəcəyi proqnozlaşdırılır. Qlobal enerji tələbinin də 2045-ci ilə qədər olan dövrdə 23 faiz artacağı gözlənilir. Hazırda isə bu rəqəmin, təxminən, 17 faiz yüksəldiyi də bildirilir. Eyni zamanda, bərpaolunan enerji mənbələri (günəş, külək, bioküttə və su daxil olmaqla) də 200 faizdən çox genişlənir.

Əl-Qays bildirib ki, dünyada 1,55 trilyon bareldən çox təsdiqlənən xam neft ehtiyatları var. Əsas məsələ kapital tutumlu və uzun müddətə başa gələn və xam neftdən əldə edilən məhsulların gündəlik həyatımız üçün vacib olduğu sənayeyə investisiya qoyuluşudur. OPEC 2045-ci ilə qədər investisiya tələblərinin cəmi 14 trilyon dollar və ya ildə orta hesabla təxminən 610 milyard dollar olacağını proqnozlaşdırır.

Bu gün neft sənayesi də emissiyaları azaltmaq üçün böyük addımlar atır. OPEC-ə üzv ölkələrin mühüm rol oynadığı sənaye artıq hidrogen layihələrinə, karbon tutma istifadəsinə və saxlama obyektlərinə, karbon qazının çıxarılmasına, birbaşa havanın tutulmasına və dairəvi karbon iqtisadiyyatına böyük həcmdə sərmayə qoyur.

*Vaqif BAYRAMOV*
*XQ*

# Ölkəmiz mina terroruna qarşı da təkbaşına mübarizə aparır

## İrəvana isə “gözün üstdə qaşın var” deyən yoxdur

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) Maarifləndirmə, Beynəlxalq və İctimaiyyətlə Əlaqələr İdarəsi müdirinin müavini Fərhad İsayev vurğulayıb ki, azad olunmuş ərazilərdə 147 988 hektar sahə yüksək səviyyədə çirklənmiş ərazidir, 675 570 hektar sahə isə orta səviyyədə çirklənib: “Minalarla yanaşı, sürpriz tələlərdən, partlayıcı qurğulardan istifadə olunub. 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalar da Azərbaycan ərazisindən tapılıb, bunlar erməni qanunsuz birləşmələri tərəfindən əraziyə daşınıb. Çaylar, su quyuları da partlayıcı qurğularla çirkləndirilib, bu isə gələcəkdə kənd təsərrüfatının inkişafına mane olacaq. Azərbaycana verilən mina xəritələrinin 25 faizdən də az dəqiqliyi



var, bu da bizim işimizi çox çətinləşdirir”.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Əlillik siyasəti şöbəsi müdirinin müavini Ülvi Hüseynov isə deyib ki, ölkədə əlilliyi olan şəxslərə dövlət tərəfindən 57 adda reabilitasiya vasitələri verilir: “Onu da qeyd edim ki, mina səbəbi ilə əlilliyi olan şəxslərə yüksək texnologiyalı protezlər təqdim olunur. Onların qiyməti 80-100 min avrodur”.

“Dəyirmi masa”da aidiyyəti dövlət orqanlarının, ictimai təşkilatların nümayəndələri və beynəlxalq ekspertlərin iştirakı ilə əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsi kontekstində, münaqişələrin ağır nəticəsi olan minaların bəşəriyyət üçün törətdiyi fəsadlar fonunda mina qurbanlarının və zərərçəkənlərin hüquqlarının müdafiəsi sahəsində aparılan işlər, nailiyyətlər və digər əlaqəli mövzular üzrə müzakirələr aparılıb.

Daha bir tədbir isə “Minalardan Azad Cənubi Qafqaz” regional kampaniyası çərçivəsində baş tutub. “Cənubi Qafqazda minaların və onların nəticələrinin ləğvi strategiyasının mühüm sütunu” mövzusunda tədbirdə Milli Məclisin deputatları, ANAMA-nın, Ombudsman Aparatının nümayəndəsi, QHT-lər və beynəlxalq ictimaiyyətin nümayəndələri, o cümlədən, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko, Polşa, Almaniyanın ölkəmizdəki səfirləri iştirak ediblər.

ANAMA-nın Maarifləndirmə, Beynəlxalq və İctimaiyyətlə Əlaqələr İdarəsinin müdiri Ramil Əzizov bildirib ki, agentlik humanitar minatəmizləmə işləri çərçivəsində 110 hektar ərazini mina və hərbi sursatlardan təmizləyib: “ANAMA minatəmizləmə işlərində kifayət qədər təcrübə qazanıb. 44 günlük müharibədən sonra 18 mindən çox tank əleyhinə, 30 mindən çox piyada əleyinə mina, 56 mindən çox silah-sursat qalıqları aşkar edilərək zərərsizləşdirilib”.

Avropa İttifaqının (Aİ) ölkəmizdəki nümayəndəliyinin rəhbəri Peter Mixalko Azərbaycanın bu gün Cənubi Qafqazda mina problemindən ən çox əziyyət çəkən ölkə olduğunu vurğulayıb: “Biz Azərbaycana əlimizdən gələn qədər kömək etməyə çalışırıq ki, ölkə bu problemi həll edə bilsin. Mina problemi siyasi məsələ deyil, humanitar məsələdir. Avropa İttifaqı Azərbaycanda mina probleminin aradan qaldırılmasında maraqlıdır. Lakin bu, çox uzun bir prosesdir”.

“LİNKS Avropa” təşkilatının direktoru Dennis Sammut bildirib ki, Azərbaycana minatəmizləmə sahəsində göstərilən yardım, görülən işlər problemin miqyasına adekvat deyil. O qeyd edib ki, gələn il donor təşkilatları Azərbaycana dəvət edəcək və problemlə əlaqədar mümkün qədər daha böyük işlərin görülməsinə müraciət ünvanlayacaqlar.

Daha sonra mina qurbanları yaşadıqları problemlərlə əlaqədar tədbir iştirakçılarını məlumatlandırıb, mina problemi ilə mübarizədə beynəlxalq təşkilatlara çağırışlar ediblər. Tədbir problemlərin müzakirəsinə həsr olunmuş panel iclasları ilə davam edib.

Qeyd edək ki, 2020-ci il noyabrın 10-dan indiyədək ölkəmizdə 50 mülki şəxs mina partlayışı nəticəsində ölüb, 108 mülki şəxs isə yaralanıb. Həmçinin bu dövr ərzində 15 hərbçi mina partlaması nəticəsində həlak olub, 164-ü isə xəsarət alıb. Ümumilikdə, qeyd edilən dövr ərzində 65 nəfər mina partlaması nəticəsində həlak olub, 272 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. 1991-ci ildən indiyə kimi isə Azərbaycanın 3415 vətəndaşı mina qurbanı olub. Onlardan 357-si uşaq və yeniyetmə, 38-i qadındır. Bu statistika problemin nə qədər ciddi olmasından xəbər verir. Eyni zamanda, mina təhlükəsi problemi ilə bağlı Bakıda bir gündə iki tədbirin keçirilməsi də ölkənin müvafiq qurumlarının və ictimaiyyətinin onun həllində qərarlı olmasının göstəricisidir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi apararaq torpaqlarını işğaldan azad edən, bu il isə lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağ iqtisadi rayonunun bütün ərazisində suverenliyi təmin olunan ölkəmiz zamanla bu problemin də öhdəsindən gələcək.

*Səxavət HƏMİD*
*XQ*

### Ekspert rəyi



**Hafiz SƏFİXANOV,
“Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyinin sədri**

– Azərbaycan 30 ildən artıqdır mina problemi ilə üz-üzədir. İşğaldan azad olunan ərazilərdə aparılan işlər nəticəsində bir milyondan çox minanın basdırıldığı məlum olub. Lakin işğal zamanı təkcə burada deyil, Ermənistan və İranla sərhəddə də minalar basdırılıb. Bu da əlavə çətinliklər yaradır.

Hazırda Azərbaycan öz arsenalında olan bütün qüvvələri mina təhlükəsi ilə mübarizəyə sərf edib. Bilirsiniz ki, ANAMA yenidən qurulub, onun maddi-texniki bazası gücləndirilib. Müxtəlif maşın-mexanizmlər alınıb, minatəmizləmə əməliyyatlarına xüsusi zirehli ekskavatorlar, digər xüsusi texnikalar da cəlb olunub. Bunlar “Revival-B” və “Revival-T” markalı minatəmizləməyən maşınlardır. Eyni zamanda, işçi qüvvəsinin sayı artırılıb, minaaxtaran itlər gətirilib, həmçinin minaaxtaran siçovullardan da istifadə olunur. Siçovulların iybilmə reseptorları daha yüksəkdir, bu da minanı daha tez aşkarlamağa kömək edir. Hazırda təhlükəli ərazilərdə 925 xəbərdaredici bilbord yerləşdirilib.

Azərbaycan dünya trendinə qoşularaq qadınlardan ibarət minatəmizləmə komandaları yaradıb. Həmin komandaların təlimləri keçirilib, onlar sertifikat alaraq minaların təmizlənməsi işinə cəlb olunublar. Bütün bunların hamısı Azərbaycanın dövlət büdcəsi hesabına həyata keçirilir. Minaların təmizlənməsi üçün sərf olunan vəsaitin 90 faizindən çox hissəsi Azərbaycanın öz vəsaitidir. Təəssüf ki, Azərbaycana bu sahədə beynəlxalq birliyin ciddi dəstəyi hiss olunmur. Böyük Britaniya, ABŞ, Fransa, Macarıstan, Avropa İttifaqı müəyyən kömək göstəriblər. Lakin bu kömək “dəryada damla” qədərdir. Görünür, BMT qətnamələrini təkbaşına icra edən Azərbaycan mina probleminin öhdəsindən də təkbaşına gəlməli olacaq.

# Qazaxıstanla mədəni əməkdaşlıq yeni müstəvidə

**Qazaxıstanın mədəniyyət və informasiya naziri Aidə Balayevanın rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda keçirilən Qazaxıstan Mədəniyyəti Günləri ilə bağlı ölkəmizdə səfərdədir.**




Dünən Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Qazaxıstanlı həmkarı ilə görüşüb. Nazir bildirib ki, Azərbaycan və Qazaxıstan prezidentləri İlham Əliyev və Kasım-Jomart Tokayev arasında dostluq və qardaşlıq münasibətləri mədəniyyət sahəsinə də müsbət təsirini göstərir. Nazir mədəniyyət və incəsənətin müxtəlif sahələrində əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün birgə layihələrin həyata keçirilməsinin önəmini vurğulayıb.

Aidə Balayeva bildirib ki, Azərbaycanla Qazaxıstan arasında ikitərəfli əlaqələrin uğurla inkişafında tarixən dostluq və qardaşlıq prinsipləri ilə yaşayan xalqlarımızın, xüsusən də dövlət başçılarımızın etibarlı və davamlı dostluğu mühüm rol oynayır. İntensiv ikitərəfli və çoxtərəfli formatda əməkdaşlığın mədəni sahədə də dinamik inkişafa təsirini görürük.

**XQ**

# Polisə müqavimətdə təqsirləndirilənlər məsuliyyətə cəlb edilib

**Qəbələ rayonunun Vəndam qəsəbəsi ərazisində polis əməkdaşlarına müqavimət göstərməkdə təqsirləndirilən şəxslər məsuliyyətə cəlb olunublar.**

Bu barədə Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin mətbuat xidmətlərinin birgə məlumatında bildirilib.

Xatırladılıb ki, dekabrın 2-də Qəbələ rayonunun Vəndam qəsəbəsində xidməti vəzifələrini icra edən polis əməkdaşlarına zor tətbiq olunmasına dair rayon prokurorluğuna məlumat daxil olub.

Aparılan araşdırma zamanı Qəbələ rayonunun Vəndam qəsəbə sakini 1981-ci il təvəllüdlü Səxavət Ağayevin qeyd olunan tarixdə yaşadığı qəsəbənin ərazisində yol hərəkəti qaydalarını pozaraq sərxoş vəziyyətdə müvafiq etibarnamə olmadan idarə etdiyi “VAZ 2107” minik markalı avtomobillə saxlanılarkən 1974-cü il təvəllüdlü qardaşı Eldəniz Ağayevlə birgə hamı tərəfindən qəbul olunmuş davranış qaydalarına və əxlaq normalarına saymazlıq nümayiş etdirmələri, ictimai qaydanı kobud surətdə pozmaları, habelə hakimiyyət nümayəndəsi qismində ictimai qaydanın qorunması üzrə vəzifələrini yerinə yetirən polis əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq zor tətbiq edilməsi ilə müşayiət olunan qərəzli xuliqanlıq hərəkətləri etməklə müqavimət göstərmələrinə və Qəbələ Rayon Polis Şöbəsinə məxsus avtomobili zədələmələrinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı başlanmış cinayət işi üzrə Eldəniz Ağayev Cinayət Məcəlləsinin 221.3 (silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə xuliqanlıq) və 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə), Səxavət Ağayev isə həmin Məcəllənin 221.2.1, 221.2.2 (bir qrup şəxs tərəfindən ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən şəxsə müqavimət göstərməklə xuliqanlıq) və 315-ci maddələrilə təqsirləndirilən şəxs qismində cəlb ediliblər.

Məhkəmənin qərarı ilə Eldəniz Ağayev barəsində həbs, Səxavət Ağayev barəsində isə ev dustaqlığı qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə bütün hallar tam, hərtərəfli və obyektiv istintaq edilməklə təqsiri olan bütün şəxslərin əməllərinə hüquqi qiymət verilməsi təmin ediləcək.

**XQ**

# Ermənistan–Türkiyə sərhədi: birinci ümidlə, ikinci səbirlə gözləyir

## Ankara Azərbaycanla sülhə nail olmadan sərhədin açılmayacağını İrəvanın nəzərinə bir daha çatdırıb

**Qapı mənzildə, binada içəri daxil olmaq vasitəsi sayılsa da, diplomatiyada sərhəd qapıları dövlətin təhlükəsizliyinin təminatçısı kimi əlahiddə əhəmiyyət kəsb edir. O ki ola Ermənistanla Türkiyə arasındakı, Azərbaycan üçün müstəsna prinsipə malik sərhəd keçid məntəqəsi.**

Türkiyə Prezidentinin və Ermənistan baş nazirinin təyin etdikləri xüsusi nümayəndələrin məşğul olduqları bu vacib məsələ üç ilə yaxındır ki, danışıqların mövzusudur. İrəvanın bugünlərdə yaydığı açıqlamaya görə, Ermənistan iki ölkənin sərhədindəki “Marqara” nəzarət-buraxılış məntəqəsində rekonsruksiya işlərini başa çatdırıb və Ankara əldə olunmuş razılığa əsasən, sərhədin tezliklə açılacağına ümid edir. Söhbət konkret olaraq diplomatik pasportları olan və üçüncü ölkələrin vətəndaşları üçün sərhədin açılmasından gedir. Ermənistan xarici işlər nazirliyinin mətbuat xidməti, hətta, “Alican” nəzarət-buraxılış məntəqəsinin istismara tam hazır olduğunu açıqlayıb və bununla bağlı Türkiyə tərəfindən “müsbət siqnalları” gözlədiyini yazıb.



Oxuculara xatırladaq ki, Ermənistan–Türkiyə sərhədinin üçüncü ölkələrin vətəndaşları və diplomatik pasportun sahibləri üçün açılması barədə razılaşma İrəvan və Ankaranın xüsusi nümayəndələrinin 2021-ci ildə start götürmüş danışıqların gedişində əldə olunub. Həmin rəsmi səviyyədə, həmçinin ikitərəfli münasibətlərin normallaşdırılmasına dair danışıqların bir neçə raundu da reallaşdırılıb. İntəhası, Ermənistanın Azərbaycanla sülh müqaviləsinin imzalanmasını ləngitməsi, eləcə də İrəvanın Zəngəzur dəhlizinin açılması üzrə öhdəliyini yerinə yetirməməsi Ankara və İrəvan arasında münasibətlərin normallaşması prosesinin, faktiki olaraq, dayanmasına səbəb oldu.

* * *

Türkiyə “Alican” nəzarət-buraxılış məntəqəsini son otuz ildə ilk dəfə cari ilin fevralında açıb. Bu da Qahramanmaraş və Hatay vilayətlərində baş vermiş dağıdıcı zəlzələdən zərər çəkənlər üçün Ermənistanın humanitar yardım yükünü daşıyan maşınların buraxılması üçün edilib. O da məlumdur ki, təxminən həmin günlərdə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan təbii fəlakətin qurbanlarına rəsmi başsağlığı verməkdən ötrü Türkiyəyə səfər etmişdi.

Fəqət üstündən bir müddət keçməmiş sonra aydın olacaqdı ki, İrəvanın “zəlzələ diplomatiyası” Azərbaycanın 44 günlük müharibədəki qələbəsindən sonra başlayan Ermənistan–Türkiyə münasibətlərinin normallaşdırılması prosesi start nöqtəsindən irəli getməyib. Çünki Türkiyə hökuməti öz qonşusunun nəzərinə aydın şəkildə çatdırdı ki, onunla münasibətlərinin normallaşması, istisnasız olaraq, Azərbaycanla sülhə nail olmasından və Zəngəzur dəhlizinin açılmasından asılıdır.

**ARAYIŞ: Ermənistan və Türkiyə arasındakı sərhəd xəttinin uzunluğu 311 kilometdir. 1993-cü ilə qədər sərhəddə iki keçid məntəqəsi fəaliyyət göstərib: Ermənistanın ikinci böyük şəhəri olan Gümrüdən qərbdə Axurik (Ermənistan) –Doğu Kapı (Türkiyə) postu və İrəvanın cənub-qərbində Marqara (Ermənistan) –Alican (Türkiyə) buraxılış məntəqəsi. 1921-ci ildə Qars müqaviləsi imzalanandan 1930-cu ilin sonuna qədər Türkiyənin Leninakanda (indiki Gümrü), Sovet İttifaqının isə Qarsda konsulluğu olub. Moskva ilə Ankara arasında münasibətlərin korlanması səbəbindən konsulluqlar bağlanıb, sərhəd keçidləri minimum səviyyədə saxlanılıb. 1993-cü ilədək sərhəd rəsmən bağlı olsa da, qatarlar sərhəddən keçib, Ermənistan və Türkiyə vətəndaşları qarşılıqlı səfərlər ediblər. 1993-cü ilin aprelində Ermənistan ordusu Kəlbəcəri işğal edəndən sonra sərhəd qapıları tamam qapadılıb.**

Hərçənd Ermənistan Azərbaycanla tezliklə sülhün əldə olunmasında maraqlı olduğunu tez-tez təkrarlayır, amma buna baxmayaraq danışıqlar prosesini uzatmaqdan ötrü ən müxtəlif bəhanələrdən yararlanmaqda davam edir. Bu zaman İrəvan danışıqlar masası arxasında Qərbin Bakıya qarşı daha güclü mövqe tutacağına, ondan müəyyən güzəştlər qoparacağına ümidini də itirmir. Amma itirdikləri artıq onun üzünə dirənməkdədir. Misal üçün, Ermənistanın 2020-ci il 10 noyabr Bəyanatnda fiksə edilmiş öhdəliklərini yerinə yetirmədiyini görən Azərbaycan Naxçıvana nəqliyyat dəhlizini İran ərazisindən keçməklə inşa edilməsinə üstünlük verdi. Araz çayının cənub sahilindən salınacaq həmin marşrutla bağlı Bakı Ermənistan ərazisindən keçəcək Zənəgəzur dəhlizinə marağının azaldığını bəyan etdi.

**Politoloq Fərhad Məmmədov qeyd edir ki, iki ölkə arasında sərhəd probleminin başlıca səbəbi Ermənistanın Zəngəzur dəhlizinin açılmasına dair 10 noyabr 2020-ci il Bəyanatının 9-cu bəndində göstərilən öhdəliyini yerinə yetirməməsidir:** “Buna görə Azərbaycan həmin dəhlizin İran ərazisindən salınmasına üstünlük verdi. Ortaya məntiqi sual çıxır: yaranmış vəziyyətdə Ermənistan sərhədin üçüncü ölkələrin vətəndaları və diplomatik pasportları olanlar üçün açılması ilə bağlı Türkiyədən “pozitiv siqnal” ala bilərmi? Hadisələrin məhz bu yöndə inkişafı az ehtimal olunur. Çünki Ankara, ilk növbədə, əmin olmalıdır ki, İrəvan regionda sülhün və sabitliyin yaranmasında sözdə deyil, əməldə maraqlıdır. Yeri gəlmişkən, Türkiyə Milli Təhlükəsizlik Şurasının noyabrın 29-da keçirilən iclasında Cənubi Qafqazdakı mövcud vəziyyət və Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması perspektivi kontekstində Zəngəzur nəqliyyat dəhlizi ətrafında yaranmış yeni sityuasiya da müzakirə edilib. Çox güman ki, həmin müzakirələrin gedişində, həmçinin Türkiyə–Ermənistan münasibətlərinin normallaşdırılması perspektivləri mövzusuna da toxunulub”.

Türkiyənin bu müstəvidə fəaliyyətini Azərbaycanla koordinə etdiyinə diqqəti çəkən politoloq F.Məmmədova görə, indiki məqamda Ankaranın Ermənistanla sərhədi açmağa hazır olduğuna dair heç bir rəsmi bəyanat verməyə hazırlaşmadığına, İrəvanla münasibətlərin normallaşdırılması prosesi istiqamətində atacağı bütün addımlar barədə Bakını məlumatlandırdığına əmin olduğunu söylədi.

* * *

Baş verənlərin fonunda İrəvan hələ də yalandan özünə təsəlli, tərəfdaşlarına isə dezinformasiya verməklə məşğuldur. ATƏT XİN Şurasının Skopyedə keçirilən illik toplantısındakı çıxışında Ermənistanın baş diplomatı Ararat Mirzoyan bəyan edib ki, “çox güman yaxın həftələr ərzində” Ankara Ermənistan–Türkiyə sərhədinin açılması istiqamətində konkret addımlar atacaq. Türkiyənin Xarici işlər naziri Hakan Fidanla görüşündə sərhəd nəzarət-buraxılış məntəqəsinin açılmasının “dəqiq müddətinin müəyyən edildiyini” avropalı həmkarlarının diqqətinə çatdıran Mirzoyan bir az da irəli gedərək, bunun regional inkişaf üçün xüsisi əhəmiyyətini vurğulamağı da yaddan çıxarmayıb.

Ermənistandan Türkiyəyə gedəcək “üçüncü ölkələrin vətəndaşları və diplomatik pasportun sahibləri üçün quru sərhədin açılması” barədə ikitərəfli razılaşmanı xatırladan Mirzoyan deyib: “Bu barədə razılaşmanı oktyabrın 23-də ikitərəfli görüşümüzdə nazir Hakan Fidan da təsdiqləyib. Onda, hətta, dəqiq müddət kimi yaxın həftələr göstərilmişdi. Biz ümid edirik ki, yaxın vaxtlarda ilk addımı, həm də hisolunacaq addımı atacağıq”.

Deməli, indi aydın olur ki, Ararat Mirzoyan Skopyedə mövcud olmayan razılaşmadan danışıb və maraqlı personalara “ümidlər paylayıb”. Məlumat üçün bildirək ki, oktyabrın 23-də Tehranda keçirilən “3+2” formatlı (Azərbaycan, Ermənistan, İran, Türkiyə və Rusiya) xarici işlər nazirlərinin sammitində, həqiqətən də, Mirzoyan Türkiyə XİN-in başçısı Hakan Fidanla görüşüb. Həmin görüşdə cari regional məsələlər və ikitərəfli gündəlik müzakirə mövzusu olub. Bundan başqa, tərəflər əvvəllər əldə edilmiş razılaşmaların realizəsinə hazırlıq barədə fikir mübadiləsi aparıblar. Vəssalam!

Mövzuya yekun olaraq onu da nəzərə çatdıraq ki, Türkiyənin Müdafiə naziri Yaşar Gülər noyabrın 27-də Bakıya səfəri zamanı qeyd edib ki, Ermənistan regionda sülhün və sabitliyin bərpa olunmasının perspektivlərini lazımi səviyyədə qiymətləndirməyi bacarmır. Türkiyəli nazir əlavə olaraq bildirib ki, “3+2” formatı bölgənin problemlərinin dinc yolla həlli üçün uğurlu platformadır.

Hər şeydən göründüyü kimi, Türkiyənin siyasi isteblişmenti Ermənistanın regional sülhün və sabitliyin təmin edilməsində oynadığı roldan məmnun deyil. Belə olan təqdirdə Türkiyənin Ermənistanla sərhədi açmasından söhbət gedə bilməz. Həm də Ankaranın bu məsələni Bakının rəyini nəzərə almadan reallaşdırması qeyri-mümkün olduğu qədər inandırıcı deyil. Bu isə o deməkdir ki, Ermənistan XİN başçısının “yaxın bir neçə həftə ərzində” Türkiyə–Ermənistan sərhədindəki “Alican” nəzarət-buraxılış məntəqəsinin açılması barədə dedikləri reallıqla qətiyyən üst-üstə düşmür.

İrəvan yəqin sonuncu siyasi vurnuxmasının nəticəsində bir daha əmin oldu ki, onun Türkiyəyə bütün yolları Azərbaycandan keçir.

***İmran BƏDİRXANLI***
***XQ***

Vida sözü

# Jurnalistlərin sevimli müəllimi əbədiyyətə qovuşdu

**Azərbaycan jurnalistikasına, ali media təhsilinə ağır itki üz verib. Bakı Dövlət Universitetinin (BDU) jurnalistika fakültəsinin professoru, Əməkdar jurnalist Yalçın Mustafa oğlu Əlizadə 83 yaşında vəfat edib. Bu acı xəbəri ölkənin elmi-mədəni ictimaiyyəti, ilk növbədə isə, Yalçınn müəllimin çoxsaylı jurnalist yetirməsi dərin kədər və hüznlə qarşıladı.**

Yalçın Əlizadə 1940-cı ildə Gəncədə doğulmuş, Bakıda orta və ali jurnalist təhsili almışdı. Bütün şüurlu həyatını, taleyini jurnalistkaya bağlayan Yalçın Əlizadə 1962-ci ildən dövlət teleradiosunda müxtəlif məsul vəzifələrdə çalışmışdı O, 1971-ci ildən məzunu olduğu jurnalistika fakültəsində elmi-pedaqoji işə dəvət edilmiş, ömrünün sonunadək burada fəaliyyət göstərmişdi.

İstedadlı jurnalist və ölkənin ilk teleradio nəzəriyyəçilərindən biri olan Yalçın Əlizadə BDU-da namizədlik dissertasiyasını müdafiə etdikdən sonra, fəaliyyətini jurnalistika fakültəsində müəllim, baş müəllim kimi davam etdirmişdi. Sonralar BDU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, teleradio jurnalistikası kafedrasının müdiri və fakültə dekanı vəzifələrində çalışmışdı. O, teleradio jurnalistikasının aktual problemlərindən bəhs edən 100-ə yaxın elmi məqalənin, 4 kitabın müəllifi idi.

Sahənin peşəkar mütəxəssisi, təcrübəli pedaqoq, təmənnasız insan olan Yalçın Əlizadə həm də qayğıkeş müəllim, xeyirxah insan, tələbələrinin dostu kimi tanınmışdı. O, yüksək mənəviyyat adamı, dürüst, tələbkar və qayğıkeş pedaqoq idi. Yalçın müəllim adları milli jurnalistikamızın tarixinə əbədi yazılmış



Nəsir İmanquliyev, Şirməmməd Hüseynov, Nurəddin Babayev, Tofiq Rüstəmov, Famil Mehdi, Nəriman Zeynalov, Nəsir Əhmədli kimi şəxsiyyətlərin istedadlı davamçılarından biri idi. Redaksiyamızın əməkdaşlarının bir çoxu da Yalçın müəllimin yetirməsidir. Bu mənada ustadımızın əziz xatirəsi daim qəlbimizdə yaşayacaq.

**Yalçın Əlizadənin yarım əsrdən artıq çalışdığı jurnalistika fakültəsində yetirməsi olmuş və sonradan onunla çiyin-çiyinə çalışmış kafedra müdiri, professor Qulu Məhərrəmli isə redaksiyamıza ünvanladığı vida sözlərində yazıb:**

– Bugünlərdə ürək ağrısı ilə vidalaşdığımız professor Yalçın Əlizadə uzun illər jurnalistika fakültəsinin dekanı və kafedra müdiri olub. Çoxlarından fərqi onda idi ki, əxlaq və mənəviyyat adamı idi. ustad qələm sahibi, radio yaradıcılığının ən gözəl tədqiqatçısı, əsl alim və klassik pedaqoq idi. Tələbkarlığı ilə xeyirxahlığı həmişə yanaşı olub. Onu mənə ən çox sevdirən daim şəxsi ləyaqət hissini qoruması, prinsipiallığı və parlaq şəxsiyyəti idi.

Yalçın müəllim ümumən ali məktəb tədrisinin, o cümlədən jurnalistika təhsilinin gözəl bilicisi və bacarıqlı təşkilatçı idi. Vaxtilə ölkənin tanınmış alimlərini və praktik media adamlarını jurnalistika fakültəsundə dərs deməyə cəlb etməklə tələbələrdə fərqli maraq yarada bilirdi.

O, vəzifə və mənsəb xatirinə haqsızlığın, kobudluğun, ədəbsizliyin qarşısında susmayıb.

Allah sizə rəhmət eləsin, Yalçın müəllim! Televiziya və radio yaradıcılığının inkişafı, media sahəsi, jurnalistika elmi, jurnalistika təhsili üçün gördüyünüz böyük işlər heç vaxt unudulmayacaq... Bir də jurnalist üçün vacib olan mənəvi keyfiyyətlər – şərə müqavimət, ruhun diriliyi və əxlaqi bütövlük sahəsində şəxsi nümunəniz həmişə yaddaşlarda qalacaq!

*Tahir AYDINOĞLU,*
*İmran HƏSƏNQALA*
*XQ*

# Ağalıda ilk kitab təqdimatı



**“Böyük Qayıdış”ın rəmzinə çevrilmiş Zəngilan rayonunun Ağalı kəndində daha bir ilkə imza atılıb: kənd tam orta məktəbində gənc şair, AYB-nin üzvü, Prezident mükafatçısı Elvin Əlizadənin “-29” adlı şeirlər kitabının imza günü keçirilib.**

Zəngilanın tanınmış ziyalısı Ceyhun Həsənov tədbiri açaraq əslən bu kənddən olan müəllifin həyat və yaradıcılığı barədə məlumat verib. Sonra Azərbaycan Yazıçılar Birliyinin mətbuat katibi, şair Xəyal Rza Şərqi Zəngəzurun Azərbaycan ədəbi mühitinə bəxş etdiyi şəxslərdən, ölkənin ictimai həyatındakı əhəmiyyətindən söz açıb və təqdim olunan kitabın bədii məziyyətlərindən danışıb.

Tanınmış yazıçı Əyyub Qiyas 29 il Sumqayıtda məcburi köçkün həyatı yaşamış ailənin övladı olan Elvin Əlizadənin vətənpərvərlik mövzusunda qələmə aldığı əsərlərdən söz açıb və onun “Zəngilan” şeirini səsləndirib. Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Sumqayıt Şəhər Komitəsinin sədri Şahin Şəfiyev, şairin qələm dostları Vüqar Rahi və Babək Məmmədli yeni kitab haqqında fikirlərini oxucularla bölüşüblər. Tanınmış xanəndə, "Xalq ulduzu" yarışmasının qalibi Tural Salmanovun müəllifin şeirlərinə bəstələdiyi mahnıları ifa etməsi də maraqla qarşılanıb.

Daha sonra çıxış edən Ağalı kənd sakini Nurəddin Əliyev oğlu Elvinin yeni kitabının təqdimatına qatılan qonaqlara və həmkəndlilərinə minnətdarlığını bildirib. Elvin Əlizadə isə 2021-ci ilin aprelində ilk “Ağıllı kənd” layihəsinin dövlətimizin başçısı tərəfindən təməliqoyma mərasimində iştirakını xatırlayıb və yeni şeirlərini həmyerlilərinə ərməğan edib.

Tədbirin sonunda yeni nəşrin müəllif imzası ilə nüsxələri oxuculara paylanıb, qonaqlar da öz kitablarını Ağalı kənd tam orta məktəbinin kitabxanasına hədiyyə ediblər.

*Ə.ƏLİYEV*
*XQ*

Azərbaycanda Qazaxıstan Mədəniyyəti Günləri

# Dost gəlişi bayram olur...



**Ölkələrimiz dövlət müstəqilliyi qazandıqdan sonra Azərbaycan və qazax xalqlarının dərin kökləri olan dostluq münasibətləri, xüsusilə də mədəni əlaqələr sahəsində əməkdaşlığı daha da genişlənib.**

Azərbaycan Prezidenti İlham Əliyev bu ilin aprel ayında Qazaxıstana rəsmi səfəri zamanı humanitar sahədə əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını bildirərək deyib ki, ənənənin davamı olaraq Azərbaycanda Qazaxıstan mədəniyyəti günləri, Qazaxıstanda isə Azərbaycan mədəniyyəti günlərinin təşkili xalqlarımızı daha da yaxınlaşdıracaq, qədim tariximizi və mədəniyyətimizi daha da zənginləşdirəcək.

Xatırladaq ki, ötən ilin iyulunda Almatı şəhərindəki “Milli Dombra Günü”nə həsr olunmuş bayram tədbirində Azərbaycan nümayəndələri də fəal iştirak ediblər. Son tədbirlərdən biri isə bu ilin oktyabr ayında Azərbaycanın mədəniyyət beşiyi olan Şuşanın Türk Dünyasının Mədəniyyət Paytaxtı statusunu daşıması ilə əlaqədar Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun “Şuşa Günləri” layihəsi üzrə təntənələrin Bursa, Daşkənd və Budapeştdən sonra qardaş ölkənin Astana və Türkistan şəhərlərində təşkili olub. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin təşəbüssü ilə Füzulidə qazax xalqının böyük oğlu Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşa olunması da qardaşlıq münasibətlərinin parlaq təzahürlərindəndir.

Dekabrın 2-də Azərbaycanda Qazaxıstan mədəniyyəti günləri başlayıb. Beynəlxalq Muğam Mərkəzində mədəniyyət günlərinin açılışı olub. Mərasimdə diplomatik korpusun nümayəndələri, mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak ediblər. Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel çıxışında bildirib ki, türksoylu Azərbaycan və qazax xalqlarını ortaq mədəniyyət birləşdirir. Diplomat mədəniyyət günlərinin iki ölkə arasında münasibətlərin bir göstəricisi olduğunu deyib və tədbirin proqramı barədə məlumat verib. Mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov qeyd edib ki, iki ölkə arasında əlaqələrin inkişafı qürur doğurur.

Sonra Qazaxıstanın “Hassak” etno-folklor ansamblının solo-konserti təqdim edilib. Qazax milli musiqisini Böyük Çölə aid 30 alətdə ifa edən tanınmış kollektiv yüksək performans nümayiş etdirib. Ansambl, eyni zamanda, milli kukla teatrı ənənələrindən istifadə etməsi ilə tamaşaçıların alqışını qazanıb. 2013-cü ildə yaradılan bu ansambl ötən illər ərzində xalq musiqisi sahəsində bir çox nüfuzlu beynəlxalq mükafata layiq görülüb. Ansambl “Etnik musiqi” nominasiyası üzrə “World folk vision” beynəlxalq müsabiqəsinin Qran-pri, “Central Asia Got Talent” beynəlxalq istedad müsabiqəsinin “Qızıl düymə” mükafatlarının sahibidir.

Mədəniyyət günləri çərçivəsində Qabit Musrepov adına Qazaxıstan Dövlət Akademik Uşaq və Gənclər Teatrı sənətsevərlər qarşısında "Qaragöz" tamaşası ilə çıxış edib. Teatrsevərlər bu kollektivi hələ 2014-cü ildə keçirilmiş Birinci Şəki Beynəlxalq teatr festivalındakı uğurlu çıxışı ilə xatırlayırlar. Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində oynanılan tamaşanın quruluşçu rejissoru Fərhad Moldağali, bəstəkarı Oljas Jakypbek, səs tərtibatçısı isə Rahat Törejandır. Qazaxıstanlı yazıçı-dramaturq Muxtar Auezovun faciə janrında qələmə aldığı əsər köhnə adətlərin qurbanı olmuş iki sevən gəncin – Sırım və Qaragözün taleyindən bəhs edir. Tamaşada əsas rolları Mədinə Öserbayeva, Nurjan Asılxan və Maksat Raxmet canlandırıblar.

Dünən isə Heydər Əliyev Mərkəzində Qazaxıstan təsviri sənət sərgisi nümayiş etdirilib və qardaş ölkənin incəsənət ustalarının qala-konserti keçirilib.

Qeyd edək ki, 2024-cü ildə Qazaxıstanda Azərbaycan Mədəniyyəti Günləri keçiriləcək.

*XQ*

Kitab rəfi



## “Türk dünyasının Əli Şamil hocası”

***Tədqiqatçı-jurnalist, folklorşünas Əli Şamilin Türk dünyasının ortaq mənəvi aləmindən xəbər verən çoxillik araşdırmaları barədə bu coğrafiyanı əhatə edən ölkələrin alim və tanınmış ziyalılarının birgə ərsəyə gətirdiyi yeni nəşr belə adlanır.***

Milli-mənəvi dəyərlərimizin fədakar təbliğçilərindən olan Nazir Əhmədlinin nəşrə hazırladığı topluda azərbaycanlı müəlliflərlə bərabər, Əli Şamilin Türkiyə, Rusiya, Almaniya, Ukrayna, İsveç, Albaniya, Suriya və başqa ölkələrdə yaşayan qələm dostlarının onun haqqında oçerk və xatirələri də yer alıb. Bu kitab Azərbaycandan əvvəl Türkiyədə böyük maraqla qarşılanıb. Türk dünyası sevdalısı olan Əli Şamilin 75 illik yubileyi ərəfəsində buraxılan kitabda xatirələrlə yanaşı, onun araşdırmaları vasitəsilə türk xalqları tarixinin maraqlı səhifələri, azadlıq mücadiləsi fədailəri haqqında geniş məlumatlara da yer verilib.

“Köhlən” nəşriyyatında çap edilmiş irihəcmli “Türk dünyasının Əli Şamil hocası” toplusu qardaş xalqlarımız arasındakı ədəbi, mədəni əlaqələri öyrənənlər üçün də zəngin material verir.

## “Dedim, bəlkə, sözüm qala”

***Tanınmış jurnalist Qalib Rəhimlinin, sanki, öz həyatının reportajı olan “Dedim, bəlkə, sözüm qala” kitabında müəllifin yarıməsrlik bir dövrü əhatə edən publisistik yaradıcılığından nümunələr toplanıb.***

“Klass Print” nəşriyyatında işıq üzü görmüş kitab 7 fəsildən ibarətdir. Qalib Rəhimli imzalı yazıları oxuduqca görürük ki, müəllifin ilk qələm təcrübələrindən tutmuş son illərə qədər qələmə aldıqları onun bir jurnalist kimi sənətin çətin və mürəkkəb yollarında necə inkişaf edərək püxtələşdiyini izləməyə imkan verir. Kitabın ilk fəsli xalqımızın




xilaskarı, azadlıq və müstəqilliyimizin baş memarı, öz adını tarixə qızıl hərflərlə yazmış ulu öndər Heydər Əliyev haqqında maraqlı yazılarla zəngindir.

Digər fəsillərdə Qarabağ uğrunda savaşda öz qələmini süngüyə çevirərək daim əsgər və zabitlərimizin yanında olan müəllifin vətənpərvərlik mövzusunda və qəhrəman oğullarımızın döyüş hünərindən bəhs edən silsilə oçerkləri toplanıb. Onun “reket” jurnalistika, müasir ədəbi proses və sair barədə məqalələri, “Məhəbbət olmayanda” və “İki mollanın bir hekayəti” adlı nəsr əsərləri də maraqlı üslubları ilə seçilir.

*Ə.DOSTƏLİ*
*XQ*

# Qazaxıstan teatrı Azərbaycan səhnəsində

**Q.Musrepov adına Qazaxıstan Dövlət Akademik Uşaq və Gənclər Teatrının Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində təqdim etdiyi "Qaragöz" tamaşası maraqla qarşılanıb.**

Klassik qazax ədəbiyyatı nümunələrindən sayılan “Qaragöz” əsəri köhnə adət-ənənələrə hədəf olmuş 2 gəncin saf məhəbbətinin uğursuz hekayətidir. Qəbilə ənənəsinə görə, bu gənclər bir-biri ilə ailə qura bilməzlər. Onların sevgisi kimi həyatları da ölümə tuş gəlir. İztirab və ümidsizlik sonda Qaragözün ölümü ilə nəticələnir. Köhnəliklə mübarizə aparan Sırım isə məşhur el şairi olur, ömrünün sonunadək tək yaşayır... İnamlı və məharətli oyunu ilə yaradıcı heyət üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəldi və ölkəmizdə Qazaxıstan Mədəniyyəti Günlərinin seçilən bir təqdimatına nail oldu.

**Tamaşadan sonra baş rollardan birinin – Sırımın ifaçısı Maksat Raxmet XQ-yə açıqlamasında dedi:**



– Düzdür, bizim günlərdə bir çox ziyanlı el qaydaları öz aktuallığını itirib, amma bəziləri bu gün də həyatımıza mane olmaqda davam edir. Unudulmaz yazıçı-dramaturq Muxtar Auezovun bir əsr yaşı olan bu əsərində məhz həmin problemdən bəhs edilir. Tamaşa Azərbaycandan əvvəl Türkiyənin müxtəlif şəhərlərində, Daşkənd teatr festivalında eyni uğurla oynanılıb.

**Qazax aktyor Bakıda ilk dəfə olduğunu və şəhəri çox sevdiyini də söylədi:**

– Füsunkar paytaxtınız var. İkinci belə qonaqpərvər bir şəhər tanımıram. Yeməkləriniz də çox dadlıdır. Sizin tamaşaçı da fərqlidir. Teatra, tamaşaya münasibət də burda diqqətçəkəndir. Qazax və Azərbaycan mədəniyyətləri bir- birinə çox yaxındır. Bu da eyni kökə bağlılığımızdan irəli gəlir. Burada öyrəndim ki, Azərbaycan teatrının 150 yaşı var. Demək, sizdən çox şey öyrənə bilərik. Ümid edirəm ki, qarşılıqlı mədəni münasibətlər ölkələrimiz üçün bundan sonra da faydalı olacaq.

**Yazıçı-dramaturq Əli Əmirlinin tamaşa barədə söylədikləri:**

– Plastika, quruluş çox xoşuma gəldi, sənət dili yüksək səviyyədədir. 1 saatdan artıq çəkdi, amma darıxdırıcı olmadı, əksinə musiqi, aktyorların şeir dili hamıya çox maraqlı gəldi. İnanmaq istəyirəm ki, bu bizim qazax teatrı ilə ilk tanışlığımız olsa da, sonuncu olmayacaq.

**Sənətşünaslıq doktoru, professor Məryəm Əlizadə isə belə dedi:**

– Bu gün bir sənət nümunəsinə tamaşa etməklə ölkəmizdə teatr bayramının şahidi olduq. Qazax teatrı ilə tanışlıq xoş hisslər yaratdı. Biz bir-birimizin sənəti, mənəvi dünyası ilə tanışlığa bir qədər gecikmişik, amma ümid edirəm ki, belə təqdimatlar sayəsində daha da yaxınlaşacağıq. Belə sənət bayramlarının tez-tez olmasını arzulayıram.

*Ramilə QURBANLI*
*XQ*


## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

Yanğınsöndürmə avadanlıqlarının satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il dekabrın 11-i saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili- 1132.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

5 Dekabr Beynəlxalq Könüllülər Günüdür

# Azərbaycan gənclərinin könül töhfələri

**Həmrəylik, könüllülük, sosial məsuliyyət kimi ali dəyərlər bu gün hər bir cəmiyyət üçün böyük əhəmiyyət kəsb edir. BMT Baş Assambleyasının qətnaməsi ilə 1985-ci ildən 5 Dekabr Beynəlxalq Könüllülər Gününün təsis edilməsi məhz belə önəmli məsələyə diqqət yetirmək baxımından xüsusilə əhəmiyyətlidir.**



Ölkəmizdə könüllülük hərəkatının tarixi "ASAN xidmət"lə başlayır, – desək yanılmarıq. Bu gün inamla deyə bilərik ki, Azərbaycanda öz iradəsi və sərbəst seçimi ilə heç bir maddi qazanc güdmədən cəmiyyətin inkişafına böyük töhfələr verən könüllülər ordusu formalaşıb. Düzdür, milli dəyərlərimiz, adət-ənənələrimiz könüllülüyün bütün formalarının bundan əvvəlki dövrlərdə də cəmiyyətimizdə bərqərar olması üçün münbit şərait yaratmışdı. Bütün dövrlərdə, istər həssas qruplara aid olan insanların ətrafında, istərsə sahibsiz heyvanların müdafiəsində, eləcə də ekoloji problemlərin həlli və ətraf mühitin qorunması istiqamətində könüllülərin fəaliyyəti gözə dəyirdi. Amma bugünkü kimi böyük bir hərəkata çevrilməmişdi. Minlərlə gəncin artıq könüllü kimi "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərərək sonradan müxtəlif vəzifələrdə ölkəmizin gələcək inkişafı üçün çalışmaları bu gün mühüm amillərdəndir.

Azərbaycanın ev sahibliyi ilə keçirilən "Eurovision-2012" mahnı müsabiqəsi, "Bakı-2015" birinci Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, "Formula -1" və digər mötəbər tədbirlərin uğurlu təşkili könüllülərsiz mümkün deyildi. Bütün bunlar beynəlxalq miqyasa çıxarılacaq böyük potensiallı, həmçinin təcrübəli könüllü bazasının formalaşmasında mühüm rol oynayıb. Bu gün ono minlərlə gənc könüllü kimi bütün sahələrdə çalışaraq cəmiyyətə nümunə olmağı bacarır.

**Onlardan biri – Nəzirə Rəhimli Azərbaycan Dövlət İqtisad Universitetində təhsil alır. "Könüllülük həyat tərzimə çevrilib", – deyir Nəzirə:**

– Kimsə, xüsusən də tələbələr düşünə bilərlər ki, könüllü fəaliyyətlə məşğul olmaq dərslərə, yaxud digər fəaliyyətlərə mane olur. Bu, belə deyil. Mən, məhz könüllülüklə sosiallaşmaq, özümü inkişaf etdirmək üçün geniş imkanlar qazandım. Bu günə qədər könüllü olaraq ölkəmizdə keçirilən dövlət əhəmiyyətli bir çox yerli və beynəlxaq layihələrdə və tədbirlərdə iştirak edərək təcrübə toplamış, öz potensialımı inkişaf etdirmişəm.

Könüllülük könüldən fəaliyyət göstərmək deməkdir. Ötən ilin sonlarında Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı yataqların qanunsuz istismarı əleyhinə Xankəndi–Laçın yolunda başlamış etiraz aksiyalarına ürəyimin səsi ilə qatıldım. Nə qış fəslinin iliklər donduran amansız çovğunlu-boranlı soyuğu, nə hiyləgər düşmənin hər zaman təxribata hazır olması, nə də digər çətinliklər biz könüllüləri qorxutmurdu. Öz iradəsi ilə sərbəst şəkildə aksiyaya qatılan Azərbaycan gənclərində könüllülük prinsiplərinin nə qədər güclü olması dünyaya bir daha aydın oldu. Məhz könüllülük əsasında nümayiş etdirdiyimiz birliklə göstərdik ki, iradəmiz sarsılmazdır və xarakterimizdən irəli gələn tədbirləri, həm də müqəddəs vəzifə kimi qəbul edirik. Könüllülük mənə yeni dostlar, maraqlı təcrübələr qazandırmaqla yanaşı, fərqli mühitlərdə müxtəlif vəzifələri icra etmək üçün də geniş imkanlar açır.

Bu gün könüllülük hərəkatını tələbələrsiz təsəvvür etmək çətindir. Tələbə-könüllülərlə işi sistemləşdirmək, könüllülük fəaliyyətini daha da stimullaşdırmaq, gənclərin asudə vaxtlarını səmərəli keçirmək üçün 2015-ci ildə "Bir" Tələbə-Könüllü" Proqramı, onun əsasında isə 2019-cu ildə "Bir Könüllü" Tələbələrin - Əməkdaşlığı İctimai Birliyi yaradılıb. 30 mindən çox tələbə könüllünü öz sıralarında birləşdirən "Bir Könüllü" Təşkilatı ötən müddət ərzində bir çox irimiqyaslı layihələrə dəstək göstərib. Geniş kütləni əhatə edən tədbirlərin idea müəllifi və təşkilatçısı qismində daim calışan qurum bu günə qədər Heydər Əliyev Fondu, Milli Olimpiya Komitəsi, "Yüksəliş" İctimai Birliyi, UNDP (Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı), AFFA, "Sports Marketing Group" şirkəti, Kapital Bank və digər böyük qurumlarla əməkdaşlıq nəticəsində yüzlərlə irimiqyaslı layihə həyata keçirib.

**Təşkilatın könüllülərlə iş üzrə meneceri Nemət Rzayev idman, təhsil və mədəniyyət, sosial yönümlü layihələrdə qurumun könüllülərinin fəal iştirak etdiklərini dedi:**

– Azərbaycan könüllüləri üçün ən həlledici sınaqlardan biri də sentyabrın 27-də başlayan və noyabrın 10-dək davam edən Vətən müharibəsi oldu. Məhz yüzlərlə könüllü Vətən müharibəsinin ilk günlərindən Azərbaycan Ordusunun sıralarına yazılaraq torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda döyüşlərə atıldı. Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün tələbə-könüllülər müxtəlif sosial şəbəkələrdə yüksək fəallıq göstərərək "#PrayForGanja" həştəqi ilə 1 milyondan çox tvit atılmasına töhfə vermiş, yaradılan xüsusi könüllü qrupları Qarabağla bağlı faktların müxtəlif dillərə tərcümə olunmasına dəstək olublar. Tələbə-könüllülər arasında vətənpərvərlik ruhunun yüksəldilməsi və birlik nümayiş etdirilməsi üçün sosial şəbəkələrdə hazırlanıb paylaşılan xüsusi posterlər və postlar 1 milyondan çox baxış sayı əldə edib, qazilər və rəsmi nümayəndələrlə görüşlər təşkil olunub. Hazırda könüllülərin karyera imkanlarının artırılması, bilik və bacarıqlarının inkişafı üçün layihələr üzərində çalışılır. Qeyd edək ki, mütəmadi olaraq təşkilat tərəfindən təlimlər, dil kursları və görüşlər keçirilir.

**Həmsöhbət olduğum daha bir könüllü gəncin – "Gənc Könüllülər" İctimai Birliyinin üzvü Aydan Abbasovanın ürəyi qurub-yaratmaq arzusu ilə doludur:**

– Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun peşəkarlığı, xalqımızın qələbə əzmi sayəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə hər birimiz fəxr edirik. Azad edilən Vətən torpaqlarının yenidən çiçəklənməsində, inkişafında könüllülərin də iştirakı mühüm rol oynayır. Biz gənclər düşmən işğalından azad olunan torpaqlarımızın dirçəldilməsi, yenidən qurulması və bərpası işlərində var-gücümüzlə iştirak etməyə hər zaman hazırıq.

***Leyla QURBANOVA***
***XQ***

BEYNƏLXALQ HƏYAT

**Fransa prezidenti Emmanuel Makron Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfərindən sonra Qətərə gedib. O, Dohada İsrail–HƏMAS münaqişəsində tərəflərə girovların bir hissəsini dəyişdirməyə imkan verən və atəşkəs razılaşmasını bərpa etmək istədiyini vurğulayıb. Mütəxəssislər deyirlər ki, Yelisey sarayının sahibi belə bir təşəbbüs irəli sürməklə Yaxın Şərqdə nüfuzunu bərpa etmək istəyir.**

# Fransanın İsraillə bağlı ritorikası sərtləşir



Emmanuel Makron Qətər əmiri Təmim bin Həməd Al Tani ilə söhbətində israilli girovların azad edilməsində vasitəçilik etdiyinə görə minnətdarlığını bildirib. Müzakirə ilk növbədə yəhudi dövləti ilə HƏMAS arasında atəşkəs razılaşmasının yenilənməsi perspektivləri ilə bağlı olub. Öz növbəsində Təmim bin Həməd Qəzza zolağında döyüşlərin dayandırılması üçün birgə beynəlxalq səylərin zəruriliyini incəliklə bəyan edib. Ancaq göz qabağındadır ki, hər şey silahlı münaqişənin əsas iştirakçılarının istəyindən asılıdır. İsrail rəhbərliyi humanitar mübadilə başa çatdıqdan sonra belə quru əməliyyatını davam etdirməkdən başqa çarəsinin olmadığını dəfələrlə vurğulayıb.

Qətərə səfərdən əvvəl E.Makronun BƏƏ-yə, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına (COP-28) Tərəflərin 28-ci Konfransına səfəri olub. Fransa prezidenti bu hadisədən İsrailə qarşı tonunu yüksəltmək üçün istifadə edib. "Düşünürəm ki, vaxt gələcək İsrail hakimiyyəti öz məqsədləri və nəyə nail olmaq istədikləri barədə daha konkret olacaq. "HƏMAS-ın tamamilə məhv edilməsi" nədir və kimsə bunun mümkün olduğunu düşünürmü? Məqsəd bu olsa, müharibə on il davam edəcək", – Makron konfransdakı çıxışında deyib. O, yəhudi dövlətinin özünümüdafiə hüququna hörmətlə yanaşdığını, lakin beynəlxalq hüquq çərçivəsində "bu özünümüdafiə mülki əhaliyə hücumla ifadə edilə bilməz" deyə vurğulayıb.

Belə qiymətləndirmələr E.Makronun 24 və 25 oktyabrda Yaxın Şərq turu zamanı verdiyi açıqlamalarla təəccüblü təzad nümayiş etdirir. O zaman o, beynəlxalq ictimaiyyətin üzvləri, o cümlədən "İŞİD" terror təşkilatına qarşı ABŞ koalisiyasının bir hissəsi olanlar tərəfindən yaradıla bilən anti-Həmas ittifaqı ideyasını açıq şəkildə irəli sürmüşdü. Baş nazir Benyamin Netanyahu ilə danışıqlar zamanı Makron demişdi ki, terrorçularla mübarizə üçün ərazi və regional qrup yaradıla bilər: "Düşünürəm ki, bu, İsrailin, eləcə də onun bir çox qonşularının maraqlarına uyğun olardı".

Fransanın "Liberation" qəzeti yazır ki, oktyabrda İsrail, İordaniya, Misir və İordan çayının qərb sahilinə səfəri ilə BƏƏ və Qətərə cari turu arasında Fransa prezidentinin ritorikası əhəmiyyətli dərəcədə dəyişib: "Eynilə İsrail və Qəzza zolağındakı vəziyyət kimi. Makronun Yaxın Şərqə iki diplomatik turu arasında beş həftə var. Qəzza zolağında isə daha 10 minə yaxın ölüm var", - nəşr vurğulayır. "Le Figaro"nun mənbələri isə iddia edirlər ki, ərəb liderləri E.Makrona İsrailin hücumlarının Fələstin cəmiyyətində HƏMAS-ın təsirini artırmasından narahat olduqlarını bildiriblər. Nəşr Yelisey sarayının İsrailin hərəkətləri ilə bağlı ritorikasını kəskin şəkildə dəyişməli olması faktını bununla əlaqələndirir. Unutmaq olmaz ki, son zamanlar Fransada müxtəlif təsir qrupları E. Makrona etirazlarını bildiriblər. Belə ki, "Le Figaro"ya görə, bu günlərdə Fransa silahlı qüvvələrinin Baş Qərargahı Yelisey sarayına "İŞİD-ə qarşı koalisiyaya bənzər" beynəlxalq anti-HƏMAS koalisiyasının yaradılması ideyasına dair böyük şübhələrə işarə edən bir nota göndərib. Diqqətçəkən bir hadisə Fransa diplomatik korpusunun nümayəndələrinin etiraz kampaniyası olub. "Le Monde"nin mənbələri iddia edir ki, anti-HƏMAS koalisiyası konsepsiyasının prezidentin hərbi-siyasi məsələlər üzrə köməkçisi Ksavye Şatel tərəfindən hazırlanması Fransa Xarici İşlər Nazirliyini hiddətləndirib.

Ekspertlərin fikrincə, bu cür yanaşmalar Parisin regiondakı mövqeyinə mənfi təsir göstərib. Oktyabr ayında İordaniyaya səfəri zamanı E.Makronu Amman hava limanında yalnız paytaxt meri qarşılayıb. Baxmayaraq ki, protokol daha yüksək səviyyəli şəxsin iştirakını tələb edir. "Le Figaro"nun diplomatik mənbələrindən biri belə münasibəti "Çox şey deyən bir jest" kimi qiymətləndirib. Bundan əlavə, qəzet yazır ki, BƏƏ-də keçirilən "COP-28"də E.Makronun bəzi ərəb liderləri ilə danışıqlar aparmaq planları Parisin Qəzza zolağındakı silahlı münaqişə ilə bağlı siyasətindən narazı olduqları üçün iflasa uğrayıb. İndi Fransa prezidenti vəziyyəti dəyişməyə can atır. Bunun üçün Paris ritorika dəyişikliyinə əl atır. Ancaq bunun vəziyyəti düzəldə biləcəyi böyük sual doğurur.

***Hazırladı:***
***S.ELAY***
***XQ***


## Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

"31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar paytaxt ərazisində bayram tərtibatı işlərinin aparılması üçün malların, işlərin və xidmətlərin satın alınması" məqsədilə

## TƏKLİFLƏR SORĞUSU ELAN EDİR

Lot – 1. "31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar paytaxt ərazisində bayram tərtibatı işlərinin aparılması üçün malların, işlərin və xidmətlərin satın alınması" satın alınması.

Təkliflər sorğusu iştirakçılarına təklif olunur ki,öz təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə, həmcinin portal vasitəsilə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı 100,00 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Təşkilat-Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti
H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
2. Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
3. Tender təklifinin təminatı tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı.
5. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.
6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.
7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.
8. İddaiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (Statistika Komitəsindən.)
9. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə 18 dekabr 2023-cü il saat 17.00-dək Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana (əlaqələndirici şəxs – Əhməd Məmmədova, telefon- (012) 496-52-05) təqdim etməlidirlər. Həmçinin portal vasitəsilə də təqdim olunmalıdır. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 19 dekabr 2023-cü il saat 11.00-da Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsi, 17 nömrəli ünvanda açılcaqdır.

***Tender komissiyası***



## Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

"Heydər Əliyev və Azərbaycan tarixi" kitabının növbəti nəşrinin və "Heydər Əliyev" monoqrafiyası kitabının nəşr edilməsi", həmçinin müxtəlif poliqrafiya məhsullarının hazırlanması üçün malların, işlərin və xidmətlərin satın alınması məqsədilə

## TƏKLİFLƏR SORĞUSU ELAN EDİR

Lot – 1. "Heydər Əliyev və Azərbaycan tarixi" kitabının növbəti nəşrinin və "Heydər Əliyev" monoqrafiyası kitabının nəşr edilməsi", həmçinin müxtəlif poliqrafiya məhsullarının hazırlanması üçün malların, işlərin və xidmətlərin satın alınması.

Təkliflər sorğusu iştirakçılarına təklif olunur ki,öz təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə, həmcinin portal vasitəsilə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı 100,00 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Təşkilat-Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti
H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
2. Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
3. Tender təklifinin təminatı tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı.
5. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.
6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.
7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.
8. İddaiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (Statistika Komitəsindən.)
9. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə 18 dekabr 2023-cü il saat 17.00-dək Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana (əlaqələndirici şəxs – Əhməd Məmmədova, telefon- (012) 496-52-05) təqdim etməlidirlər. Həmçinin portal vasitəsilə də təqdim olunmalıdır. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 19 dekabr 2023-cü il saat 10.00-da Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsi, 17 nömrəli ünvanda açılacaqdır.

***Tender komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 265 (30381) 5 dekabr 2023-cü il, çərşənbə axşamı


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.


Qarabağ Azərbaycandır!
Xalq qəzeti
Varislik ənənəsində Qələbə ovqatı
Liderə xalqa söykənəndir

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

*Hörmətli abunəçilər! Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Konsert

# Filarmoniyada Mariya Kallas axşamı



***M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Opera Art" IV Beynəlxalq Musiqi Festivalı çərçivəsində XX əsrin ən məşhur opera müğənnilərindən olan Mariya Kallasın 100 illiyinə həsr olunmuş konsert keçirilib.***

Filarmoniyadan mətbuata bildirilib ki, Xalq artisti Dinarə Əliyeva (soprano) M.Kallasın unudulmaz sənətinin parlaq nümunələrindən təşkil olunan rəngarəng proqramla dinləyicilərin qarşısına çıxıb. Vokalçını dirijor, Xalq artisti Yalçın Adıgözəlovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib.

Proqramda Vinçenso Bellini, Cüzeppe Verdi, Françesko Çilea, Frans fon Zuppe, Cakomo Puççini, Frans Leqar, Pyetro Maskanyi, Corc Qerşvin, Harold Arlen və İmre Kalmanın əsərləri səslənib.

*XQ*

İdman xəbərləri

# Paracüdoçularımız 3 medal qazanıblar

**Azərbaycan paracüdoçuları Yaponiyanın paytaxtı Tokioda keçirilən Qran-pridə 2 gümüş, 1 bürünc medal qazanıblar.**




Komandamızın üzvləri Vüqar Şirinli (60 kq) və Şəhanə Hacıyeva (48 kq) gümüş medal əldə ediblər. 73 kq çəki dərəcəsində çıxış edən Namiq Abaslı isə J2 kateqoriyasında bürünc mükafata sahib çıxıb.

# Avarçəkənimiz "Çağırış-2023"ün qalibi olub

**Avarçəkənimiz Diana Dımçenko Monakoda şahzadə II Albertin şərəfinə təşkil edilən sahil avarçəkməsi üzrə "Çağırış Kuboku-2023" reqatasının qalibi olub.**



Azərbaycan təmsilçisi qarışıq 4 nəfərlik qayıqda avstriyalı Maqdalena Lobrinq, ABŞ idmançıları Kris Bak və Kori Rocerslə birgə mübarizə aparıb. 4 min metr məsafəyə yürüşdə D.Dımçenkonun komandası finiş xəttinə hamıdan birinci çataraq çempionluğu qazanıb.

Qeyd edək ki, turnirdə 18 ölkədən 22 komandanın tərkibində 110 idmançı mübarizə aparır.

# "Böyük dəbilqə"də 3 mükafat

**Azərbaycan cüdoçuları Yaponiyanın paytaxtı Tokioda keçirilən "Böyük dəbilqə" turnirində 1-i qızıl olmaqla 3 medal qazanıblar.**



Komandamızın aktivinə qızıl medalı Hidayət Heydərov (73 kq) yazdırıb. Zelim Kotsoyev (100 kq) və Zelim Tçkayev (81 kq) bürünc medal qazanıblar.

Azərbaycan millisi bu nəticə ilə komanda hesabında 4-cü yeri tutub.

*Leyla SABİRQIZI*
*XQ*

Süreyya Ağaoğlu – 120

# "Türk dünyasının ilk qadın hüquqşünası"

**Astanadakı Türk Akademiyası Qumilyov adına Avrasiya Milli Universiteti (AMU) ilə birgə "Süreyya Ağaoğlu–Türk dünyasının ilk qadın hüquqşünası" adlı beynəlxalq seminar keçirib.**

Türk Akademiyasının vitse-prezidenti Asxad Kesikbayev Süreyya Ağaoğlunun yazıçı və hüquqşünas kimi həyatı, yaradıcılığı və fəaliyyəti haqqında məlumat verib.

Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov Süreyya Ağaoğlunun yüksək peşəkarlıq və qətiyyət, əyilməz iradə və prinsipiallıq nümunəsi olduğunu bildirib. Səfir qeyd edib ki, Süreyya Ağaoğlu 1903-cü ildə Şuşa şəhərində tanınmış dövlət xadimi, filosof və publisist Əhmədbəy Ağaoğlunun ailəsində anadan olub.



b.1910-cu ildə ailəsi ilə birlikdə Türkiyəyə köçüb, burada şəxsiyyət kimi formalaşıb, öz həyatını qanunun aliliyinə, xüsusən də qadın hüquqlarına və azadlıqlarına həsr edib.

Bakıdakı "Əhməd Ağaoğlu tədqiqat mərkəzi" ictimai təşkilatının rəhbəri Nigar Axundova Süreyya Ağaoğlunun Türk dünyası qarşısındakı xidmətlərindən, Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin möhkəmlənməsi sahəsinə verdiyi töhfədən danışıb.

Sonra Türkiyənin Qazaxıstandakı səfiri Ömər İnan, AMU-nin prorektoru Lazat Nurkatova, professor Jamaladin İbrahimov, Astana Beynəlxalq Universitetinin müəllimi Tokjan Sadıqov Süreyya Ağaoğlunu yazıçı, hüquqşünas, qadın hüquqlarının müdafiəçisi kimi xarakterizə ediblər.

Sonda Süreyya Ağaoğlunun həyat yolu, yazıçı kimi yaradıcılığı və fəaliyyətindən bəhs edən sənədli film göstərilib.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin xüsusi müxbiri*

Astana

Ekologiya



# Moskva son 145 ildə belə qar görməmişdi...

**"Oliver" siklonunun təsiri nəticəsində sutka ərzində Moskva və Moskva vilayətinə aylıq normanın üçdə biri qədər yağıntı düşüb. Bu gecə qar örtüyünün hündürlüyü 30 santimetrə çatıb.**

Qarlı hava səbəbindən Rusiya paytaxtının aeroportlarında 65 reys təxirə salınıb, 7 reys ləğv edilib. Hidrometeoroloqlar xəbərdarlıq edirlər ki, güclü qardan sonra Moskvanı Sibir şaxtaları gözləyir. Dekabrın 6-dan həftə sonunadək 15-20 dərəcəyədək şaxta olacağı proqnozlaşdırılır.

*XQ*

Texnologiya yenilikləri

# Maskın 2-ci "Starship"i kosmosa çatdı



**Yadınızdadırsa, "SpaceX" şirkətinin yeni nəsil "Starship" kosmik gəmisi noyabrın 18-də sınaq uçuşu həyata keçirmişdi. Lakin kosmik gəmi həmin gün səmaya qalxan zaman partlamış və meydançanı da məhv etmişdi.**

1-ci uçuşdan sonra "SpaceX"in qurucusu və rəhbəri İlon Mask X-də yazmışdı ki, raket 3-4 həftə ərzində uçmağa hazır olmalıdır. 2-ci, artıq uğurlu uçuşdan sonra isə o, uçuşu bu cür dəyərləndirib: "Starship özünü yenidən yoxladı və o, əla vəziyyətdədir! Uçuş çox yaxşı keçdi. Kosmik gəmi bu dəfə kosmosa çatdı. Onun bütün 33 mühərriki alışdı; əvvəlki uçuşlarda isə 6-sı uğursuz olmuşdu".

Mask, "SpaceX"in əvvəlki uçuşda partlamasına nəyin səbəb olduğunu açıqlamayıb.

*Ayan SƏMƏDQIZI*
*XQ*

Hava

# Güclü külək, duman olacaq və yağış yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən dekabrın 5-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gündüz bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz arabir güclü olacaq. Gecə 7-11°, gündüz 12-15° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin günün ikinci yarısında bəzi şərq rayonlarında arabir yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-8°, gündüz 16-21° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 9-14° isti olacaq.



*Q.QASIMOV*
*XQ*

# ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin müəllimi, professor, Əməkdar jurnalist

**YALÇIN ƏLİZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin kollektivi iş yoldaşları, professor, Əməkdar jurnalist

**YALÇIN ƏLİZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3210
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00